RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 136 (8729) ŞƏNBƏ, 3 iyul 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyev növbəti möhtəşəm layihəsini gerçəkləşdirir

## Xəzər sahilində yaradılan azad iqtisadi zona qeyri-neft sektorunun lokomotivinə çevriləcək

**Azərbaycanda həyata keçirilən iqtisadi islahatların əsas məqsədi ölkənin hərtərəfli inkişafına nail olmaqdır. Bunun üçün də qeyri-neft sektorunu inkişaf etdirmək vacibdir.**

İndiyədək bu istiqamətdə xeyli iş görülüb. Xüsusilə texnoparkların və sənaye zonalarının yaradılması sayəsində qeyri-neft sektorunda məhsul istehsalı ildən-ilə artmaqda davam edir.

Prezident İlham Əliyevin iyulun 1-də təməlqoyma mərasimində iştirak etdiyi Ələt Azad İqtisadi Zonasının fəaliyyətə başlaması bu sahədə daha böyük dönüşə səbəb olacaq. Çünki indiyədək azad iqtisadi zonalar mövcud olduqları ölkələrdə iqtisadi inkişafa böyük töhfələr verib. Azərbaycanın da bu təcrübədən istifadə etməsi, şübhəsiz ki, ölkəmizə yeni uğurlar qazandıracaq. Ələt Azad İqtisadi Zonasının yüksək səviyyədə fəaliyyət göstərməsi üçün ölkəmizdə lazım olan bütün imkanlar mövcuddur.

Təməlqoyma mərasimində dövlət başçısına məlumat verildi ki, Ələt Azad İqtisadi Zonasının ümumi sahəsi 850 hektarı əhatə edir. Bunun 60 hektarında layihələndirmə işləri tamamlanıb və inşaat işlərinə başlanılıb. Burada investorların fəaliyyətə başlaması üçün lazım olan bütün zəruri infrastruktur yaradılacaq.

Qeyd edək ki, azad ticarət zonalar (AİZ) daha çox ABŞ-da geniş yayılmışdır. Onların yaradılması 1934-cü ildə ABŞ-da qüvvəyə minən xüsusi qanunla başlanmışdır. Bunun da məqsədi ticarətin həvəsləndirilməsi, ticarət əməliyyatlarının sürətlənməsi, ticarət xərclərinin azaldılması olmuşdur. Qanunda göstərilir ki, hər bir rəsmi limanda heç olmazsa bir azad xarici ticarət zonası yaradıla bilər. Azad ticarət zonalarına misal olaraq nəhəng beynəlxalq aeroportlarda yaradılmış "Duty free" adlanan xüsusi mağazaları göstərmək olar. Maliyyə rejimi nöqteyi-nəzərindən azad ticarət zonalarına dövlət sərhədindən kənarda yerləşən bir zona kimi baxılır. Azad ticarət zonalarına həmçinin güzəştli ticarət rejiminə malik ənənəvi azad limanları da aid etmək olar. Hazırda dünyada 600-dən çox azad liman və 4000-ə qədər azad ticarət zonası mövcuddur.

1973-cü il mayın 18-də Kiotoda keçirilən gömrük prosedurlarının sadələşdirilməsi və harmonikləşdirilməsi üzrə beynəlxalq konvensiyada göstərilir ki, azad zona (franko zona) dedikdə, ölkə ərazisinin hər hansı bir hissəsi başa düşülür ki, burada məhsullara milli gömrük ərazisindən kənarda (gömrük eksteritoriallığı prinsipi) olan bir obyekt kimi baxılır və buna görə də onlar gömrük nəzarətindən keçirilmir, vergiyə cəlb edilmirlər. Başqa sözlə desək, azad iqtisadi zona xüsusi rejim altında fəaliyyət göstərən ölkə ərazisinin bir hissəsidir. Azad iqtisadi zonalarda yerləşən təsərrüfat subyektləri xüsusi qanunvericiliyi özündə əks etdirən rejim altında fəaliyyət göstərirlər və onların bu fəaliyyəti tənzimlənir. Bu da özündə aşağıdakı vacib məsələləri əhatə edir: gömrük tənzimlənməsi; vergiyə cəlbetmə; lisenziyalaşdırma; viza rəsmiləşdirilməsi; bank fəaliyyəti; mülkiyyət və girov münasibətləri (o cümlədən, torpağa sahiblik hüququna dair məsələlər); konsessiyanın (imtiyazın) verilməsi; azad zonanın idarə edilməsi. Azad iqtisadi zonaların müəyyənedici xüsusiyyətlərindən biri də əmək və sosial qanunvericilik aktlarının belə ərazilərdə tətbiq olunmasıdır.

*Ardı 6-cı səh.*

◆ **Milli Məclisin iclasında**

## Parlamentlərarası əməkdaşlıq genişlənir

İyulun 2-də Milli Məclisin növbədənkənar sessiyası çərçivəsində daha bir iclası keçirilib. İclasa başlamazdan əvvəl Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan parlament nümayəndə heyətinin Macarıstana rəsmi səfəri barədə məlumat verib.

Səfərin iyunun 28-də başlayıb 30-da başa çatdığını bildirən Sahibə Qafarova diqqətə çatdırıb ki, Macarıstan Avropa İttifaqının, NATO-nun və digər Avropa təşkilatlarının üzvüdür. Bu ölkə tarixi köklərinə əsaslanaraq, öz xarici siyasətində türkdilli dövlətlərlə münasibətləri inkişaf etdirməyə, türk dünyasına inteqrasiyaya xüsusi əhəmiyyət verir. Macarıstan Türk Şurasında, Türkdilli Ölkələrin Parlament Assambleyasında, türkdilli dövlətlərin digər inteqrasiya qurumlarında müşahidəçi kimi iştirak edir.

Sədr qeyd edib ki, Azərbaycanla Macarıstan arasında münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır. Ölkələrimiz arasında əməkdaşlıq dinamik inkişaf edir və bu əməkdaşlığın dərinləşdirilməsinə hər iki tərəfdən böyük diqqət göstərilir.

Ölkəmizin parlament nümayəndə heyətinin rəsmi səfəri də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Macarıstanla münasibətlərin inkişafına verdiyi əhəmiyyətin ifadəsi idi.

Spiker bildirib ki, səfərin birinci günü, yəni iyunun 28-də nümayəndə heyətimiz Azərbaycanın Budapeştdəki səfirliyində olub. Burada Ulu Öndər Heydər Əliyevin xatirəsi anılıb, büstü önünə gül dəstələri qoyulub. Nümayəndə heyətimiz Azərbaycanın Macarıstandakı fövqəladə və səlahiyyətli səfiri Vilayət Quliyevlə görüş keçirib və fikir mübadiləsi aparıb. İyunun 29-da nümayəndə heyətimiz Türk Şurasının Budapeşt nümayəndəliyinin ofisində "2021-ci il - Nizami Gəncəvi ili"nə həsr olunmuş tədbirdə iştirak edib.

*Ardı 3-cü səh.*

## *Prezident İlham ƏLİYEV:* "Bu Qələbədə Azərbaycanda yaşayan hər bir xalqın öz qiymətli və dəyərli payı var"

**"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 110-cu kitabı çapdan çıxıb.**

AZƏRTAC xəbər verir ki, çoxcildliyin bu kitabındakı materiallar 2021-ci ilin fevral-mart aylarını əhatə edir. Həmin dövr ölkəmizin həyatında bir çox önəmli hadisələrlə zəngin olub. Bunlardan biri də Prezident İlham Əliyevin yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransıdır. Xocalı soyqırımının ildönümündə dörd dildə dörd saat davam etmiş mətbuat konfransında dövlətimizin başçısı Ermənistana və onun himayədarlarına aydın və birmənalı mesajlar verib, Azərbaycanın regionda və beynəlxalq aləmdə mövqeyini bəyan edib. Həmçinin Vətən müharibəsində qazanılmış Zəfərdə Azərbaycanda yaşayan müxtəlif xalqların rolunu yüksək dəyərləndirərək deyib: "Azərbaycanda heç vaxt dini, milli zəmində hər hansı qarşıdurma, anlaşılmazlıq olmamışdır. İkinci Qarabağ müharibəsi bunu bir daha göstərdi. Yəni, bütün xalqların nümayəndələri bir bayraq altında bir yumruq kimi birləşdi və bu Qələbədə Azərbaycanda yaşayan hər bir xalqın öz qiymətli və dəyərli payı var".

Yeni kitabda ölkəmizdə və dünyada geniş rezonans doğuran mətbuat konfransının materialları, habelə Prezident İlham Əliyevin "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında keçirilmiş 7-ci iclasında, İqtisadi Əməkdaşlıq Təşkilatının XIV onlayn Zirvə toplantısında çıxışlarının mətnləri də yer alıb.

*Ardı 2-ci səh.*

## "Cənub qaz dəhlizi" möhkəm təmələ əsaslanır

### Bakı-Tbilisi-Ərzurum kəmərinin istifadəyə verilməsindən 14 il keçir



Bakı yaxınlığındakı Səngəçal terminalından şaxələnən ixrac marşrutları Xəzərin Azərbaycan sektorundan çıxarılan karbohidrogenləri dünya bazarlarına nəql edir. "Şahdəniz" qazını daşıyan Bakı-Tbilisi-Ərzurum (BTƏ) kəməri də başlanğıcını buradan götürür. Bu kəmər 2007-ci il iyulun 3-də istifadəyə verilib.

2001-ci il martın 12-də Ümummilli Lider Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri çərçivəsində "Azərbaycanın təbii qazının Türkiyə Respublikasına tədarük edilməsinə dair Azərbaycan və Türkiyə Respublikaları arasında təbii qazın satışı və alışı haqqında müqavilə" imzalandı. Həmin il sentyabrın 29-da isə Gürcüstan Prezidentinin Bakıya səfəri zamanı "Təbii qazın Gürcüstan Respublikası ərazisindən tranziti, nəql edilməsi və satışına dair Azərbaycan və Gürcüstan Respublikaları arasında saziş"in imzalanması baş verdi. 6 il sonra "Şahdəniz"dən çıxarılan mavi yanacağın Bakı-Tbilisi-Ərzurum xətti ilə Türkiyənin qaz kəmərləri sisteminə daxil olması bunların uğurlu nəticəsi idi.

Azərbaycan qazı 2006-cı ildə Cənubi Qafqaz Boru Kəməri (CQBK) ilə Gürcüstana çatdırıldı. Ümumi uzunluğu 691 kilometr olan CQBK-nın Azərbaycan hissəsi 443 kilometr, Gürcüstan hissəsi isə 248 kilometrdir. Bu boru kəməri Türkiyə sərhədinədək Azərbaycanda və Gürcüstanda Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri ilə eyni marşrut boyu uzanır. Gürcüstan-Türkiyə sərhədində CQBK-ya 280 kilometrlik boru kəməri qoşulur ki, bununla Azərbaycan qazı Ərzuruma çatdırılır. Səngəçal-Ərzurum marşrutu ilə uzanan bu xətt bütövlükdə Bakı-Tbilisi-Ərzurum kəməri adlanır. Məhz BTƏ sayəsində Azərbaycan həm də qaz ixrac edən ölkə kimi tanınmağa başladı.

*Ardı 6-cı səh.*

## Dağıtmaq üçün doğulmuşlar, qurub-yarada bilməsələr də...

### Azərbaycan Ermənistana regionda sülh və əməkdaşlıq istiqamətində addımlar atmağı tövsiyə edir

**Son əsrlərdə misligörünməmiş vandallıq nümayiş etdirən erməni nasistlərinin aramsız cinayətləri səbəblərindən Qafqaz dünyanın gərgin münaqişə ocaqlarından birinə çevrilmişdi.**

XX əsrin əvvəlindən bu günədək gizli münaqişələr və açıq müharibələrlə müşahidə edilən və böyük güclər tərəfindən aşkar şəkildə dəstəklənən bu aqressiya ərazilərimizin zəbt edilməsi və uzun illər işğal altında saxlanılması ilə nəticələnmişdi. Nəhayət, Azərbaycan 44 günlük Vətən müharibəsində Ermənistan ordusunu darmadağın edərək möhtəşəm Zəfər qazanmış və bununla erməni separatçılığının belini qırmışdır.

Bəli, bu gün Azərbaycan üçün müharibə artıq keçmişdir. Biz 44 günlük müharibəni ermənilər kimi gündə yüz dəfə araşdırmırıq. Əksinə, regionda sülhə, qarşılıqlı əməkdaşlığa, meqalayihələrin həyata keçirilməsinə köklənmişik. Üstəlik, 30 il ərazilərimizdə vəhşiliklər törədən Ermənistana da bu layihələrdə iştirak etməyi təklif edirik. Təəssüf ki, işğalçı ölkə hələ savaşla sülh arasındakı fərqləri qavramaq iqtidarında deyil.

*Ardı 5-ci səh.*

## İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının həqiqi hərbi xidmət edən hərbi qulluqçularının aylıq vəzifə maaşlarına Azərbaycan Respublikası Prezidentinin əlavəsinin müəyyən edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, işğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının həqiqi hərbi xidmət edən hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının həqiqi hərbi xidmət edən hərbi qulluqçularının (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) aylıq vəzifə maaşlarına 2021-ci il iyulun 1-dən Azərbaycan Respublikası Prezidentinin əlavəsi müəyyən edilsin.

2. Müəyyən edilsin ki, bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan hərbi qulluqçulara (bundan sonra - hərbi qulluqçular):

2.1. Azərbaycan Respublikası Prezidentinin əlavəsi hərbi qulluqçuların aylıq vəzifə maaşlarının 50 faizi həcmində 5 (beş) il müddətində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən ödənilir;

2.2. 2021-ci ildə Azərbaycan Respublikası Prezidentinin əlavəsinin ödənilməsi "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli 1241 nömrəli Fərmanının 1.3.5.2-ci "Məhkəmə hakimiyyəti, hüquq mühafizə və prokurorluq orqanları üzrə əməyin ödənişi xərclərinin tənzimlənməsi və digər sosial tədbirlər" yarımbəndində nəzərdə tutulmuş vəsaitin, növbəti illərdə isə dövlət büdcəsinin Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Baş İdarəsinin saxlanılması xərclərində nəzərə alınması hesabına təmin edilir;

2.3. Azərbaycan Respublikası Prezidentinin əlavəsi hərbi qulluqçulara onların Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış sayına və tərkibinə uyğun olaraq ödənilir.

3. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

4. Bu Sərəncam 2021-ci il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyul 2021-ci il*

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin bir qrup əməkdaşının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsində, ölkədə tətbiq edilmiş xüsusi karantin rejiminin tələblərinə riayət olunmasına nəzarət edilməsində, hərbi vəziyyət rejiminin təmininə yönəlmiş tədbirlərin həyata keçirilməsində, işğaldan azad olunmuş ərazilərdə ictimai asayişin və təhlükəsizliyin təmin edilməsində xidməti vəzifələrini yerinə yetirməkdə fərqləndiklərinə görə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin aşağıdakı əməkdaşları təltif edilsinlər:

**2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Kərimov Oqtay Əsgər oğlu - polis general-mayoru

**"Vətən uğrunda" medalı ilə**

Abdullayev Zaur Natiq oğlu - polis general-mayoru
Kərimov Orduxan Alqayıt oğlu - istefada olan polis polkovniki
Mahmudov Toğrul Ramiz oğlu - polis polkovniki
Mehdiyev Fərhad Süleyman oğlu - polis polkovniki
Məmmədov Xəqani Seyfulla oğlu - polis polkovniki
Məmmədov Mahir Əli oğlu - polis polkovniki
Məmmədov Müzəffər Qəzənfər oğlu - polis polkovniki
Mirhuseynov Xəyyam Cahangir oğlu - polis polkovniki
Nəbiyev Zaur Əli oğlu - polis polkovniki
Abdullayev Şahid Mürsəl oğlu - polis polkovnik-leytenantı
Heydərov Arzu Afət oğlu - polis polkovnik-leytenantı
Quliyev Yelmar Məhər oğlu - polis polkovnik-leytenantı
Qurbanov Rəhman Niyazi oğlu - polis polkovnik-leytenantı
Məmmədov Məmmədəli Həsən oğlu - polis polkovnik-leytenantı
Məmmədov Rüfət Nizami oğlu - polis mayoru
Behbudov Murad Arif oğlu - polis kapitanı
Əliyev Mübariz Vəzir oğlu - polis baş serjantı

**"İgidliyə görə" medalı ilə**

Məhərrəmov Səməd Akif oğlu - polis polkovniki
Hacıyev Namiq Fərrux oğlu - polis polkovnik-leytenantı
Salahov Faiq Fərman oğlu - polis polkovnik-leytenantı
Əliyev Mahir Boran oğlu - polis mayoru
Əliyev Səməndər Əziz oğlu - polis mayoru
Məmiyev Razi Aftandil oğlu - polis leytenantı
Məmmədov Mahir Tahir oğlu - polis baş serjantı
Xudiyev Vüqar Yusif oğlu - istefada olan polis baş serjantı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyul 2021-ci il*

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin zabitlərinə ali xüsusi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin aşağıdakı zabitlərinə polis general-mayoru ali xüsusi rütbəsi verilsin:

polis polkovniki Əlaslan Qaçay oğlu Ağayevə

polis polkovniki İslam Möhsüm oğlu Hümbətova

polis polkovniki Əkbər Məcid oğlu İsmayılova

polis polkovniki Əbülfət Əhəd oğlu Rzayevə.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyul 2021-ci il*

# Azərbaycan və Qırğızıstan XİN-ləri arasında Əməkdaşlıq Proqramı imzalanıb

**İyulun 2-də xarici işlər naziri Ceyhun Bayramov Azərbaycana rəsmi səfəri çərçivəsində Qırğızıstan Respublikasının xarici işlər naziri Ruslan Kazakbayev ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, hər iki tərəfdən geniş tərkibli nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə Azərbaycan ilə Qırğızıstan arasında ikitərəfli əməkdaşlıq gündəliyinə daxil olan məsələlər, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, habelə regional təhlükəsizlik məsələləri müzakirə edilib.

Həmkarını səmimiyyətlə salamlayan nazir Ceyhun Bayramov Azərbaycan və qırğız xalqları arasında mövcud olan tarixi, mədəni və dini bağların iki ölkə arasında əlaqələrin əsasını təşkil etdiyini bildirərək, inkişaf etməkdə olan ikitərəfli dostluq və əməkdaşlıq münasibətlərini məmnunluqla vurğulayıb. Ölkələrimiz arasında yüksəksəviyyəli səfər mübadilələrinin münasibətlərin inkişafına təkan verdiyi qeyd olunub. Nazir dost ölkə Qırğızıstanın bu günədək Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ədalətli mövqeyinə verdiyi dəstəyin tərəfimizdən yüksək qiymətləndirildiyini vurğulayıb. Nazir Ruslan Kazakbayev Qırğızıstan ilə Azərbaycan arasında tarixi bağları və qardaşlıq münasibətlərini qeyd edərək, əlaqələrin ikitərəfli və çoxtərəfli platformalarda uğurla inkişaf etdiyini vurğulayıb. Azərbaycanla münasibətlərə önəm verildiyini qeyd edən Qırğızıstanın xarici işlər naziri ikitərəfli əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsində maraqlı olduqlarını deyib.




Nazirlər ikitərəfli gündəliyin bir çox istiqamətlərini, iqtisadi-ticari əlaqələrinin genişləndirilməsini, nəqliyyat, tranzit sahələrində əməkdaşlığı, o cümlədən Ələt Azad İqtisadi Zonasına investorların cəlb edilməsini, habelə kənd təsərrüfatı, turizm, humanitar, mədəniyyət, təhsil sahələrində əməkdaşlığın perspektivlərini müzakirə ediblər. Hökumətlərarası Komissiyanın fəaliyyətinin dəstəklənməsinin, biznes forumların keçirilməsinin əhəmiyyəti vurğulanıb. Nazir Ceyhun Bayramov həmkarına münaqişədən sonra bölgədə mövcud olan vəziyyət, xüsusilə azad edilmiş ərazilərdə onilliklər ərzində törədilmiş dağıntılar, tarixi-mədəni irsin məhv edilməsi, ətraf mühitə böyük zərərin vurulması, habelə mina təhlükəsi barədə danışıb. Hazırda bu ərazilərdə aparılan bərpa və quruculuq işləri barədə məlumat verib.

Tərəflər həmçinin ikitərəfli əməkdaşlığın genişləndirilməsi imkanları, gələn il diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd edilməsi üzrə fikir mübadiləsi aparıblar.

Görüşün sonunda nazirlər "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Qırğızıstan Respublikasının Xarici İşlər Nazirliyi arasında 2021-2022-ci illər üzrə Əməkdaşlıq Proqramı" sənədini imzalayıblar.

# Prezident İlham ƏLİYEV: "Bu Qələbədə Azərbaycanda yaşayan hər bir xalqın öz qiymətli və dəyərli payı var"

*Əvvəli 1-ci səh.*

Oxucu nəşrdə dövlət başçısının işğaldan azad edilmiş Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarına səfərləri, Zəngilan rayonunun Bəsitçay Dövlət Təbiət Qoruğunun ərazisində çinarəkmə mərasimi haqqında informasiyalarla, Güləbird kəndində Azərbaycan bayrağını qaldırdıqdan sonra etdiyi çıxışın mətni ilə tanış ola bilər. Azərbaycan xalqına doğma Laçın diyarından müraciət edən Prezident deyib: "Biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib. Bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq". Bu sözlər işğaldan azad edilmiş ərazilərdə yaşayacaq insanların rifahı naminə həyata keçirilən və keçiriləcək tədbirlərin geniş miqyasından bir daha xəbər verir.




Çoxcildliyin 110-cu kitabında Prezident İlham Əliyevin ABŞ Etnik Anlaşma Fondunun prezidenti və təsisçisi Mark Şnayerlə, İtaliyanın "Maire Tecnimont Group" şirkətinin sədri Fabrizio Di Amatonun başçılıq etdiyi nümayəndə heyəti, "Signify" şirkətinin baş icraçı direktoru Erik Rondolat ilə görüşləri haqqında informasiyalar toplanıb. Yeni nəşrə dövlət başçısının Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldinlə, Pakistanın Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general Nadim Razanın başçılıq etdiyi nümayəndə heyəti, Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ilə, Böyük Britaniyanın Avropa qonşuluğu və Amerika məsələləri üzrə Dövlət naziri xanım Vendi Mortonla, Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komissiyasının sədri Akif Çağatay Kılıçın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşlərinə dair materiallar da daxil olunub.

Mart ayında ölkə həyatında yaşanan siyasi hadisələr sırasında Yeni Azərbaycan Partiyasının VII qurultayı da önəmli yer tutur. Çoxcildliyin yeni nəşrində qurultayın materialları və partiyanın sədri İlham Əliyevin dərinməzmunlu nitqləri ilə tanış olmaq mümkündür.

Nəşrdə dövlət başçısının Xəzər rayonunda Şağan Reabilitasiya Pansionatının əsaslı təmirdən sonra açılış mərasimində iştirakı barədə informasiya, Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim edilməsi mərasimində çıxışının mətni də verilib.

"Azərnəşr" tərəfindən buraxılan 110-cu kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Baş nazir Əli Əsədov Qırğızıstanın xarici işlər naziri ilə görüşüb

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 2-də Qırğızıstan Respublikasının xarici işlər naziri Ruslan Kazakbayev ilə görüşüb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Qırğızıstan əlaqələrinin inkişafından məmnunluq ifadə edilib, ikitərəfli əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

# Ceyhun BAYRAMOV: "Azərbaycan və qırğız xalqları arasında tarixi, mədəni, dini bağlılıqlar mövcuddur"

"Azərbaycan və qırğız xalqları arasında tarixi, mədəni, dini bağlılıqlar mövcuddur. Ölkələrimiz qarşılıqlı hörmətə və etimada əsaslanan münasibətləri davam etdirmək siyasəti yürüdürlər. Dövlət başçılarımız arasında səmimi münasibətlər əlaqələrin daha da inkişafına mühüm töhfələr verir".



AZƏRTAC xəbər verir ki, bu sözləri Qırğızıstan Respublikasının xarici işlər naziri Ruslan Kazakbayevlə görüşdən sonra keçirilən brifinqdə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov deyib. Nazir bildirib: "Bu gün iqtisadi-ticari əlaqələrin genişləndirilməsi istiqamətində danışıqlar aparıldı. Bir sıra istiqamətlər üzrə qarşılıqlı maraqlar ifadə edildi. Nəqliyyat marşrutlarının koordinasiya edilməsi də müzakirə olunan məsələlər sırasındadır. Müzakirələrdə qida təhlükəsizliyi, kənd təsərrüfatı, turizm kimi məsələlər də ön planda oldu. Ölkələrimiz arasında münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin roluna dair fikirlərimizi bölüşdük. Həmçinin beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin mövqelərinin qarşılıqlı surətdə dəstəklənməsinin vacibliyi vurğulandı.

# Ruslan KAZAKBAYEV: "Azərbaycan Qırğızıstan üçün çox vacib tərəfdaşdır"

"Bu gün azərbaycanlı həmkarım Ceyhun Bayramovla çox faydalı danışıqlar apardıq. Bu danışıqlar bir çox sahələri əhatə etdi. Beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərini müzakirə etdik".




AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla görüşdən sonra keçirilən brifinqdə Qırğızıstan Respublikasının xarici işlər naziri Ruslan Kazakbayev deyib.

O bildirib: "Bişkek ilə Bakı arasında birbaşa hava reyslərinin bərpa olunması məsələsinə toxunduq. Nəqliyyat dəhlizlərinin açılması barədə fikir mübadiləsi də apardıq. Hazırda ölkələrimiz arasında əlaqələrin gücləndirilməsi prioritet məsələdir". Nazir qeyd edib ki, Azərbaycan Qırğızıstanın çox vacib tərəfdaşıdır. Bu tərəfdaşlıq bir çox sahələri əhatə edir. Bu münasibətlərin əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulub və Prezident İlham Əliyev tərəfindən uğurla inkişaf etdirilir.

# Azərbaycan və Slovakiya Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr aparılıb

İyulun 2-də Azərbaycan Respublikası və Slovakiya Respublikası Xarici İşlər nazirlikləri (XİN) arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, siyasi məsləhətləşmələrdə Azərbaycan XİN-in nümayəndə heyətinə nazir müavini Xələf Xələfov, Slovakiya nümayəndə heyətinə Xarici və Avropa İşləri Nazirliyinin dövlət katibi Martin Klus rəhbərlik ediblər.

Görüşdə ölkələrimiz arasındakı münasibətlərin hazırkı vəziyyəti, habelə ikitərəfli əlaqələrin bir çox istiqamətlərdə, o cümlədən siyasi, iqtisadi-ticarət, sərmayələr, nəqliyyat, tranzit, humanitar, mədəniyyət, turizm və digər sahələrdə inkişaf perspektivləri müzakirə olunub. X.Xələfov slovakiyalı həmkarına Ermənistanın Azərbaycana qarşı 30 ildən bəri davam edən hərbi təcavüzünün ağır nəticələri, 44 günlük Vətən müharibəsindən sonra regionda yaranmış yeni vəziyyət və bununla bağlı cərəyan edən proseslərin inkişafı barədə məlumat verib, onilliklər ərzində işğal altında saxlanılan ərazilərdə yaşayış məntəqələri və infrastrukturun məqsədli şəkildə dağıdılması, mina təhlükəsi, habelə azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və quruculuq işləri barədə geniş danışıb.

Nazir müavini işğal amilinin aradan qaldırılması ilə iki ölkə arasında münasibətlərin normallaşdırılması üçün imkanların yaradıldığını qeyd edərək, üçtərəfli bəyanatların icrası, o cümlədən kommunikasiya və nəqliyyat xətlərinin açılmasından bölgənin bütün ölkələrinin faydalanacağını vurğulayıb.

Tərəflər ikitərəfli əməkdaşlığın gələcəkdə genişləndirilməsi üçün əlverişli imkanların olduğunu və siyasi dialoqun davam etdirilməsinin vacibliyini bildiriblər.

Görüşdə həmçinin Azərbaycan ilə Slovakiya arasında beynəlxalq təşkilatlar çərçivəsində mövcud olan əməkdaşlıq, regional və qlobal xarakterli məsələlər, eyni zamanda qarşılıqlı maraq doğuran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

## Milli Məclisin iclasında

# Parlamentlərarası əməkdaşlıq genişlənir





Əvvəli 1-ci səh.

Türk Şurasının Budapeşt ofisinin rəhbəri Yanoş Hovari, Macarıstan Xarici İşlər Nazirliyinin dövlət katibinin müavini Andraş Baranye çıxışlarında Azərbaycanın Macarıstan üçün qardaş və strateji tərəfdaş dövlət olduğunu vurğulayıblar. Onlar Türk Şurası çərçivəsində əməkdaşlığın iki ölkə arasında ikitərəfli münasibətlərin inkişafına töhfə verdiyini qeyd ediblər.

Milli Məclisin Sədri bu tədbirdə etdiyi çıxışda bildirib ki, Türk Şurasının üzvü olan bütün dövlətlərin nümayəndələrinin Budapeştə, Türk Şurasının nümayəndəliyinə təşrif gətirməsi xalqlarımız arasında sıx əlaqələrin daha bir təzahürüdür. Qeyd edib ki, bu gün Türk Şurası öz strateji baxışını yaratmaq üzərində işləyir. "Türk Dünyasının baxışı - 2040" yol xəritəsindən istifadə edərək biz bütün sahələrdə əməkdaşlığı daha da dərinləşdirə və türk dünyası üçün daha yaxşı gələcək qura bilərik.

Spiker xatırladıb ki, Türk Şurasının qarşıya qoyduğu vacib vəzifələrdən biri də beynəlxalq terrorizmə, separatizmə, ekstremizmə və transsərhəd cinayətlərə qarşı mübarizədə fəaliyyətin əlaqələndirilməsidir. Sədr Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 illik işğalına son qoymaq uğrunda aparılan Vətən müharibəsində haqlı və ədalətli mövqeyimizə dəstək verdiklərinə görə Türk Şurasının üzvü olan dövlətlərin hökumətlərinə və xalqlarına öz adından və Milli Məclis adından səmimi təşəkkürünü ifadə edib.

Sahibə Qafarova bildirib ki, iyunun 29-da Macarıstanın Baş naziri cənab Viktor Orbanla görüşüb. Baş nazir ilk öncə Azərbaycan xalqını 44 günlük müharibədə qələbə çalması və torpaqlarını azad etməsi münasibətilə təbrik edib. Bildirib ki, Azərbaycandan gələn nümayəndə heyətləri hər zaman Macarıstan xalqı və dövləti üçün xüsusi qonaqlardır. Macarıstan dost ölkə olan Azərbaycanla münasibətlərin inkişafına böyük önəm verir. Bu gün ölkələrimiz arasında siyasi, iqtisadi, mədəni, humanitar sahələrdə əməkdaşlıq yüksələn xətlə inkişaf edir.

Milli Məclisin Sədri iki xalqın ortaq tarixi köklərə malik olduğunu bildirərək qeyd edib ki, Azərbaycan onun müstəqilliyini ilk tanıyan dövlətlərdən biri olan Macarıstanla hərtərəfli əməkdaşlığın inkişafına böyük əhəmiyyət verir. Sədr Azərbaycan torpaqlarının işğalına son qoymaq üçün aparılan 44 günlük Vətən müharibəsi dövründə ədalətli mövqe nümayiş etdirdiyinə görə Macarıstan dövlətinə və xalqına minnətdarlığımızı bildirib. Azad edilmiş ərazilərin minalardan təmizlənməsi işində Macarıstan tərəfindən verilən dəstəyə görə təşəkkür edib və bunu Macarıstanın dost münasibəti kimi dəyərləndirib.

Elə həmin gün Azərbaycanla parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüş olub. İki ölkənin parlamentləri arasında əməkdaşlıq barəsində hər iki dostluq qruplarının üzvləri faydalı fikir mübadiləsi aparıblar. Qeyd olunub ki, parlamentlər arasında münasibətlər dövlətlərarası əlaqələrimizin daha da möhkəmlənməsində mühüm rol oynayır. Bu sahədə parlamentlərarası dostluq qrupları xüsusi əhəmiyyətə malikdir. Hər iki ölkənin deputatlarının beynəlxalq təşkilatlarda yaxın əməkdaşlığından, bir-birini dəstəkləməsindən məmnunluq ifadə edilib.

İyunun 30-da nümayəndə heyətimiz Əlil Uşaqlar üçün Laszlo Batyani İnstitutunun Reabilitasiya Mərkəzini ziyarət edib. Mərkəzin böyük bir korpusu Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunub. Mərkəzin kollektivi ilə söhbət zamanı Milli Məclisin Sədri bildirib ki, Heydər Əliyev Fondunun bu dəstəyi iki dost xalq arasında münasibətlərin yüksək səviyyəsini nümayiş etdirir. Müasir Azərbaycan dövlətinin qurucusu və banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adını daşıyan və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi fond hər zaman xeyirxah və humanist təşəbbüslər ilə nəinki Azərbaycanda, həm də ölkə hüdudlarından kənarda bir çox mühüm layihələr həyata keçirir və fondun çoxşaxəli və xoşməramlı fəaliyyəti həmişə yüksək qiymətləndirilir.

Mərkəzə Milli Məclis adından xatirə hədiyyəsi təqdim edilib.

Elə həmin gün nümayəndə heyətimiz Macarıstan Diplomatik Akademiyasında olub. Əvvəlcə Milli Məclisin Sədri Sahibə Qafarovanın Macarıstanın Dövlət katibi - Macarıstan Diplomatik Akademiyasının prezidenti xanım Orsolya Pacsay Tomassiç ilə görüşü olub. Sonra Sədr Akademiyada mühazirə oxuyub. Tədbir iştirakçılarına Azərbaycanın keçdiyi inkişaf yolu barədə məlumat verib, minillik tarixə malik dövlətçilik ənənələrimizdən danışıb. Spiker qeyd edib ki, ortaq tarixi köklərə və oxşar tarixi taleyə malik olan xalqlarımız arasında ikitərəfli münasibətlər yüksək səviyyədədir. Dövlət başçılarının qarşılıqlı səfərləri, görüşləri və indiyədək imzalanmış sənədlər əməkdaşlığımızın gələcək inkişafı üçün möhkəm zəmin yaradıb.

Sədr parlamentlərarası əməkdaşlıq məsələləri haqqında da fikirlərini bölüşüb.

İyunun 30-da Milli Məclisin Sədri və nümayəndə heyətimiz Macarıstan Milli Assambleyasının Sədri cənab Laszlo Kover ilə görüşüblər. Söhbət zamanı ölkələrin qarşılaşdıqları problemlərin həllində parlament diplomatiyasının əhəmiyyətindən danışılıb. Qeyd edilib ki, deputatlarımız beynəlxalq parlament təşkilatlarında uğurla əməkdaşlıq edir, ölkələrimizin maraqlarının müdafiəsində bir-birinə dəstək verirlər. Macarıstan və Azərbaycan parlamentlərində fəaliyyət göstərən dostluq qruplarının ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynadıqları da vurğulanıb.

Sahibə Qafarova Milli Məclisdəki çıxışında xüsusilə qeyd edib ki, Macarıstanda keçirdikləri hər bir görüşdə - həm Baş nazir cənab Viktor Orbanla, Milli Assambleyanın Sədri cənab Laszlo Koverlə, Azərbaycanla parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüşlərdə, həm də Türk Şurasının Budapeşt nümayəndəliyinin ofisində, Macarıstan Diplomatik Akademiyasında etdiyi çıxışlarda belə bir fikir ana xətt kimi keçmişdir ki, Ermənistan Azərbaycan ərazilərini 30 il ərzində işğal altında saxlamışdır. Bu isə Qafqazda regional inkişafa və inteqrasiyaya böyük maneə törədib. Təəssüf ki, BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsi kağız üzərində qalmışdı. Ötən il Azərbaycan özü hərbi-siyasi imkanları hesabına bu qərarların icrasını təmin etmişdi və ərazi bütövlüyümüz bərpa olunmuşdu.

Artıq azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərinə başlanıb. Təəssüf ki, Ermənistan azad edilmiş torpaqlarımızda minalanmış ərazilərin xəritələrini verməkdən imtina edir. Nəticədə Azərbaycan vətəndaşı olan hərbi qulluqçular və mülki şəxslər minaya düşərək həlak olur və ya yaralanırlar. Milli Məclisin Sədri bir daha beynəlxalq ictimaiyyəti Ermənistanı minalanmış ərazilərin xəritələrini verməyə məcbur etməyə çağırıb.

Sədr bildirib ki, Ermənistan müxtəlif təxribatlara əl atır, münaqişə başa çatdıqdan sonra Qarabağda saxlanılmış terrorçuları "hərbi əsirlər" kimi təqdim etməyə çalışır.

Hazırda Azərbaycan suveren hüququndan istifadə edərək Ermənistanla sərhədlərin delimitasiyasını həyata keçirir. Lakin Ermənistan bu məsələdə də qeyri-konstruktiv mövqe nümayiş etdirərək saxta məlumatlar yaymaqla dünya ictimaiyyətini aldatmağa çalışır. Bununla əlaqədar Spiker bildirib ki, Azərbaycan heç bir maneəyə baxmayaraq, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın bütün bəndlərinin tam icrasını təmin edəcəkdir.

Sonra iclasın gündəliyi təsdiq edilib və cari məsələlərin müzakirəsinə başlanılıb.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxışında Macarıstana səfərdə dostluq qrupunun rəhbəri kimi iştirak etdiyini qeyd edərək söyləyib ki, bu səfər iki ölkə arasında mövcud olan münasibətlərin daha da inkişaf etdirilməsinə töhfə verir.

Birinci vitse-spiker bildirib ki, Vətən müharibəsi bitdikdən sonra Azərbaycanda güc strukturlarının, hərbi strukturların peşə bayramları xüsusi şəraitdə qeyd olunur. Torpaqlarımız işğaldan azad olunub və bu prosesdə hərbçilər, güc strukturları yaxından iştirak ediblər. Bu gün Azərbaycan polisinin peşə bayramıdır. Azərbaycan polisi birinci Qarabağ müharibəsində olduğu kimi, Vətən müharibəsində də peşəkarcasına, cəsarətlə iştirak edib, onlarca, yüzlərlə şəhid verərək, qazi olaraq Azərbaycan dövlətçiliyinə sədaqətlə xidmət edib.

Ötən əsrin 90-cı illərinin əvvəllərində də Azərbaycan polisi Birinci Qarabağ müharibəsində fədakarlıq göstərib və Vətəni müdafiə edib. Növbəti mərhələdə, 1993-cü ildə Ulu Öndər hakimiyyətə qayıtdıqdan sonra ölkədə ictimai-siyasi sabitliyin bərpa olunmasında Azərbaycan polisinin müstəsna rolu olub. 1994-1995-ci illərdə dövlət çevrilişinə cəhdin qarşısı uğurla alınıb. Daha sonda isə mütəşəkkil cinayətkarlığa qarşı effektiv mübarizə həyata keçirilib və Azərbaycanda tam ictimai-siyasi sabitlik bərpa olunub.

Əli Hüseynli parlament rəhbərliyi və deputatlar adından Azərbaycan daxili işlər orqanlarının əməkdaşlarını peşə bayramları münasibəti ilə təbrik edərək bildirib ki, artıq torpaqlarımız işğaldan azad olunub. Bu dövr ərzində hərbi vəziyyətdə biz bir daha Azərbaycan polisinin peşəkar fəaliyyətinin şahidi olduq. Birinci vitse-spiker əminliklə vurğulayıb ki, Azərbaycan polisi bundan sonra da ölkə Prezidentinin siyasətinə, xalqımıza və dövlətimizə uğurla xidmət edəcək.

Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, bütün deputat korpusu bu təbriklərə qoşulur.

Sonra çıxış edən komitə sədrləri Musa Quliyev, Zahid Oruc, deputatlardan Sahib Alıyev, Azər Badamov, Razi Nurullayev, Məlahət İbrahimqızı, Eldəniz Səlimov, Bəhruz Məhərrəmov, Ramin Məmmədov da polis işçilərinin peşə bayramlarını təbrik ediblər. Deputatlar eyni zamanda gündəmdə olan bir sıra aktual mövzularla bağlı öz fikirlərini bölüşüblər, seçiciləri narahat edən bəzi problemlərdən bəhs ediblər.

Spiker diqqətə çatdırıb ki, gündəlikdə 10 məsələ var. Qeyd edib ki, ilk 4 məsələ üçüncü oxunuşda olan qanun layihələridir. Birinci və ikinci məsələlər cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə yaxındır. Bildirilib ki, gündəliyin birinci məsələsi "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi, ikinci məsələsi isə "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir.

Hər iki məsələ barədə məlumat verən parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev qeyd edib ki, hər iki qanuna edilən dəyişikliklər vətəndaşlarımızın sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir. Layihəyə əsasən, əgər şəxsə əlillik müddəti bitəndən sonra 6 aya qədər dövr ərzində yenidən əlillik təyin edilibsə, yeni əlillik təyinatı onun əvvəlki əlillik müddətinin bitdiyi tarixdən rəsmiləşəcək.

Deputat Qüdrət Həsənquliyev fikirlərini söylədikdən sonra hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova bildirib ki, gündəliyin üçüncü və dördüncü məsələləri də cənab Prezident tərəfindən bir zərfdə daxil olub və mahiyyətcə bir-birinə yaxındır.

Əvvəlcə, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "Əmək pensiyaları haqqında" qanunda dəyişikliklə bağlı məlumat verib. Bildirilib ki, sənəd vətəndaşların sosial müdafiəsini gücləndirmək məqsədilə hazırlanıb. Dəyişikliklərin mahiyyəti ondan ibarətdir ki, dövlət orqanı əsasında publik hüquqi şəxs yarandığı zaman dövlət qulluğuna xitam verilən işçilərin pensiya yaşına iki il qalıbsa və onların 13 il stajı varsa, onların pensiyaları dövlət qulluqçusu kimi hesablanacaq. Yəni onlara iki il güzəşt tətbiq olunur. Komitə sədri qanun layihəsinin ikinci oxunuşu zamanı söylənilən fikirlərə, verilən təkliflərə də münasibət bildirib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Sonra Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Dövlət qulluğu haqqında" qanunda nəzərdə tutulan dəyişikliklər barədə danışıb. Bildirilib ki, dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır. Belə ki, "Əmək pensiyaları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində göstərilən müddəalar faktiki olaraq "Dövlət qulluğu haqqında" qanunda da öz əksini tapmalıdır.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

İclasda Spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, digər 6 məsələ ikinci oxunuşda olan qanun layihələridir. Növbəti iki məsələ cənab Prezidentin bir məktubu ilə daxil olub və mahiyyətcə bir-birinə yaxındır.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Əmək Məcəlləsində, Mülki Prosessual Məcəllədə, Ailə Məcəlləsində, Mülki Məcəllədə, Vergi Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, İnzibati Prosessual Məcəlləsində, "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında", "Dövlət rüsumu haqqında", "Məhkəmə-Hüquq Şurası haqqında" və "İnzibati icraat haqqında" qanunlarda dəyişiklik edilməsi və "Mediasiya haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələrinə dair məlumat verib.

Bildirilib ki, "Mediasiya haqqında" qanunun tətbiqi ilə bağlı bir sıra məcəllələrə və qanunlara əlavə və dəyişikliklər təklif olunur. Eyni zamanda o da qeyd edilib ki, "Mediasiya haqqında" qanun iyulun 1-dən qüvvəyə minib. Təqdim olunan qanun layihələrinin qüvvəyə minmə tarixi də 1 iyul nəzərdə tutulub. Lakin bu qanun layihələri faktiki olaraq ikinci oxunuşdadır. Bu səbəbdən həmin müddəa çıxarılıb və cənab Prezidentin imzaladığı tarixdən qüvvəyə minəcək. Layihələrdə bəzi texniki düzəlişlər də edilib. Qeyd olunub ki, təqdim olunan layihələr Mediasiya institutunun inkişafına xidmət edəcək.

Deputatlar Qüdrət Həsənquliyev, Etibar Əliyev, Sədaqət Vəliyeva, Sahib Alıyev qanun layihələri barədə fikirlərini açıqlayıblar.

Əli Hüseynli səsləndirilən fikirlərə münasibət bildirdikdən sonra hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra iclasda "Dövlət qulluğu haqqında", "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında", "Diplomatik xidmət haqqında", "Ədliyyə orqanlarında qulluqkeçmə haqqında", "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" qanunlarda və Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli 768-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də, 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də, 2001-ci il 29 iyun tarixli 168-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"də və 2009-cu il 4 dekabr tarixli 930-IIIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Miqrasiya orqanlarında qulluqkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsinə baxılıb. Məsələ ilə əlaqədar parlament Sədrinin birinci müavini, komitə sədri Əli Hüseynli məlumat verib. Bildirib ki, dəyişiklik xüsusi dövlət orqanından dövlət qulluğuna, dövlət qulluğundan xüsusi dövlət qulluğuna keçən zaman sınaq müddətinin və stajın yenidən tətbiq olunmamasını özündə ehtiva edir.

Deputatlar Fazil Mustafa, Elnur Allahverdiyev sənədlə bağlı münasibətlərini bildirdikdən sonra qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova qeyd edib ki, gündəliyin növbəti üç məsələsi - Mülki Prosessual Məcəllədə, "Dövlət rüsumu haqqında" qanunda və İnzibati Prosessual Məcəllədə dəyişiklik edilməsi haqqında qanun layihələridir. Qeyd edilib ki, ötən iclasda bu məsələlər gündəliyin son 4 məsələsi kimi nəzərdə tutulmuşdu. İnzibati Prosessual Məcəllədə dəyişiklik edilməsi barədə iki qanun layihəsi var idi. Həmin layihələri birləşdirərək bir sənəd kimi təqdim etmək qərara alınıb.

Spiker diqqətə çatdırıb ki, ötən iclasda Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi barədə qanun layihəsinə müəyyən rəylər bildirilib. Bunları nəzərə alaraq, Hüquq siyasəti və dövlət quruculuğu, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin birgə iclasında həmin layihənin ictimai müzakirəsi keçirilib. İclasa Ali Məhkəmənin, Ədliyyə Nazirliyinin, Vəkillər Kollegiyasının nümayəndələri də dəvət edilib. Suallara aydınlıq gətirilib, təkliflər dinlənilib. Müzakirə nəticəsində qanun layihəsini Milli Məclisin iclasına təqdim etmək qərara alınıb.

Məsələ ilə bağlı çıxış edən birinci vitse-spiker, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, ictimai müzakirə formatında komitələrin çox effektiv iclası keçirilib. Fikir mübadiləsi zamanı deputatlar maraqlı təkliflər veriblər. Nəticə etibarilə biz hüquq ictimaiyyətini, daha çox vəkilləri narahat edən məsələlərlə bağlı qanunvericilik təşəbbüsü subyekti ilə razılıq əldə etdik.

Bildirilib ki, ən vacib məqamlardan biri 174-cü maddə ilə bağlı idi. Verilən təkliflər də nəzərə alınaraq 174.5-ci maddə yeni formada veriləcək.

Əli Hüseynli bildirib ki, ikinci məsələ rüsumlarla bağlıdır. Diqqətə çatdırılıb ki, məhkəmə-hüquq islahatları çərçivəsində pulsuz hüquqi yardımla bağlı qanunun təqdim olunması nəzərdə tutulub.

Hakimlərin sayının artırılması məsələsinə toxunan komitə sədri bildirib ki, cari ilin fevral ayında cənab Prezidentin müvafiq fərmanının tətbiqi ilə bağlı 44 yeni hakim təyin olunub, hazırda 44 hakim tədris mərhələsinə keçib, 152 hakimliyə namizəd ikinci mərhələdədir, 100 nəfər isə yenidən hakim olmaq üçün müraciət edib. Qeyd olunub ki, hakimlərin seçilməsi prosesi davamlı surətdə gedir. Ümumiyyətlə, hakimlərin sayının artırılması ilə bağlı Prezidentin fərmanının tətbiqi sahəsində son iki ildə çox mühüm işlər aparılıb. Əli Hüseynli qanun layihəsinin ölkədə həyata keçirilən məhkəmə-hüquq islahatlarına töhfə verəcəyini söyləyib.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Dövlət rüsumu haqqında" qanunda dəyişiklik edilməsi barədə sənədi təqdim edib. Qeyd edilib ki, əsas məqamlardan biri rüsum dəyişmə sisteminin əhalinin sosial qayğıya ehtiyacı olan təbəqəsinə təsirilə bağlıdır. Bildirilib ki, qanun layihəsində aztəminatlı təbəqənin qorunması ehtiva olunub.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova qeyd edib ki, deputatlar həmişə mediaya açıq olmalıdır. Biz nə qədər mediaya açıq olsaq, bir o qədər cəmiyyətdə yaranan suallar öz cavabını tapacaq.

Müzakirələr zamanı komitə sədrləri Zahid Oruc, Siyavuş Novruzov, Ziyafət Əsgərov, deputatlar Fazil Mustafa, Fəzail Ağamalı, Razi Nurullayev, Etibar Əliyev, Aydın Hüseynov dəyişikliklər barədə öz fikirlərini söyləyiblər.

Sonra hər üç qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# Mədəni və mənəvi yaxınlıq münasibətlərin daha da dərinləşməsinə zəmin yaradır

**İyulun 2-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Qırğızıstan Respublikasının xarici işlər naziri Ruslan Kazakbayevin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Spiker qonaqları səmimi salamlayaraq Azərbaycanın dost Qırğızıstanla əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini söyləyib. Qeyd edilib ki, xalqlarımız arasındaki mədəni və mənəvi yaxınlıq münasibətlərimizin daha da dərinləşməsi üçün yaxşı zəmin yaradır. Tarixən mövcud olan əlaqələrimiz ölkələrimiz müstəqillik əldə etdikdən sonra keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Yüksəksəviyyəli qarşılıqlı səfərlər zamanı aparılan danışıqlar, ölkələrimiz arasında imzalanmış sənədlər əməkdaşlığımızın dərinləşməsində əhəmiyyətli rol oynayır. İqtisadi sahədə də yüksək nailiyyətlər əldə etmək üçün potensial imkanlar mövcuddur.



Söhbətdə Sədr 44 günlük Vətən müharibəsi dönəmində Azərbaycanın Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın işğalı altında olan torpaqların azad edildiyini və bununla da BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin tələblərinin yerinə yetirildiyini diqqətə çatdırıb. Bildirilib ki, Qarabağda işğaldan azad olunmuş ərazilərdə bütün mülki infrastruktur, mədəni abidələr erməni vandalları tərəfindən dağıdılıb. Bu dağıntıları ancaq Xirosima ilə müqayisə etmək olar. Münaqişənin artıq həll edilməsinə baxmayaraq, Ermənistan öz çirkin niyyətlərindən əl çəkmək istəmir. Qarabağda aparılan bərpa, quruculuq işlərinə mane olmaq, məcburi köçkünlərin öz doğma yurd-yuvalarına qayıtması prosesini ləngitmək məqsədi ilə minalanmış ərazilərin xəritəsini verməkdən imtina edir, 10 noyabrda imzalanmış üçtərəfli Bəyanatın tələblərini yerinə yetirməkdən boyun qaçırır. Ermənistan həmçinin sərhəddə təxribatlar törədir, azad olunmuş ərazilərə terrorist qrupları göndərir. "Hərbi əsirlər" məsələsində beynəlxalq ictimaiyyəti çaşdırmağa çalışır.

Spiker Azərbaycan həqiqətlərini dəstəklədiklərinə görə Qırğızıstan tərəfinə öz minnətdarlığını ifadə edib.

Söhbət zamanı Sahibə Qafarova bildirib ki, ikitərəfli münasibətlərimiz parlamentlər səviyyəsində də yüksələn xətlə inkişaf etməkdədir. O, hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsini təqdir edib. Onların fəaliyyəti barədə fikirlərini bölüşüb. Qeyd edilib ki, beynəlxalq təşkilatlar çərçivəsində deputatlarımızın mütəmadi görüşləri ümumi mənafelərə xidmət edir. Sədr TÜRK PA çərçivəsində əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Ruslan Kazakbayev ölkəmizə səfərindən və burada keçirdiyi görüşlərdən məmnun qaldığını söyləyib. Bildirilib ki, Azərbaycan Qırğızıstan üçün önəmli ölkədir. Ruslan Kazakbayev bəşəriyyətin bəlasına çevrilmiş pandemiya ilə əlaqədar Azərbaycanın onun ölkəsinə etdiyi humanitar yardıma görə minnətdar olduqlarını deyib. Söhbətdə o, parlamentlər səviyyəsində münasibətlərimizin dərinləşməsinin həyatın digər sahələrinə də öz müsbət təsirini göstərəcəyinə əmin olduğunu söyləyib.

Sonra tərəfləri maraqlandıran digər məsələlər barədə danışılıb.

Görüşdə Milli Məclisin komitə sədri, Qırğızıstanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Musa Quliyev, komitə sədri Səməd Seyidov, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev, ölkəmizin Qırğızıstandakı səfiri Hidayət Orucov və digər rəsmi şəxslər iştirak ediblər.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Azərbaycan polisinin fəaliyyəti dövlətə və xalqa sədaqət nümunəsidir





Azərbaycan Polisinin yaranmasının 103-cü ildönümü münasibətilə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov başda olmaqla nazirliyin rəhbər heyəti Fəxri xiyabana gələrək Ulu Öndər Heydər Əliyevin abidə kompleksi önünə tər çiçək dəstələri düzüblər.



Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi ehtiramla yad olunub, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra respublikanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş mərd mübarizlərin uyuduğu Şəhidlər xiyabanı ziyarət olunub.

İyulun 2-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasında Azərbaycan Polisi Gününə və 2020-2021-ci tədris ilinin buraxılışına həsr olunmuş təntənəli mərasim keçirilib.

Respublikanın daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tədbirdə iştirak edib.

Tədbir iştirakçıları xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalmış, xidməti borcu yerinə yetirərkən həlak olmuş polis əməkdaşlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Əlamətdar gün münasibətilə Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin təbriklərini və ən xoş arzularını şəxsi heyətə çatdıran nazir general-polkovnik Vilayət Eyvazov Azərbaycan Polisinin keçdiyi şərəfli inkişaf yolu, xüsusən Ulu Öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə daxili işlər orqanlarının fəaliyyətinin təşkili, peşəkar kadr özəyinin yaradılması, Prezident İlham Əliyevin başçılığı ilə daxili işlər orqanlarında həyata keçirilən islahatlardan, struktur dəyişikliklərindən, xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışıb.

Müasir maddi-texniki bazaya, infrastruktura və qabaqcıl texnologiyaya malik mobil daxili işlər orqanlarında yaradılmış elektron xidmətlərin, veb-saytların, qaynar xətlərin, həmçinin "ASAN xidmət" mərkəzlərində fəaliyyətin vətəndaş məmnunluğunun təmin edilməsinə yönəldiyini vurğulayan general-polkovnik Vilayət Eyvazov şəxsi heyətin peşə hazırlığının zamanın yeni təhdid və çağırışlarına cavab verən səviyyəyə yüksəldilməsi üçün ardıcıl iş aparıldığını da qeyd edib.

Nazir bildirib ki, son 18 ildə 22 mindən çox cinayətkar qrup və dəstə zərərsizləşdirilib, əllərdə qanunsuz saxlanılan 17 minə yaxın odlu silah yığılıb və onun tətbiqi ilə törədilən hüquqazidd əməllərin sayı xeyli azalıb. Cinayətlərin orta hesabla 84 faizinin açılması təmin olunub, axtarışda olan 58 mindən çox təqsirləndirilən şəxs tutulub, qanunsuz dövriyyədən 13 tona yaxın narkotik vasitə çıxarılıb. Respublikada əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı bu gün də əksər dünya ölkələri ilə müqayisədə xeyli azdır.

Hazırda dünyanın, o cümlədən Azərbaycanın son yüz ilin ən böyük qlobal çağırışlarından biri ilə üzləşdiyini, bəşəriyyətin COVID-19 virusuna qarşı mübarizə apardığını, bir ildən artıq müddətdə xüsusi karantin rejimində yaşadığımızı bildirən general-polkovnik Vilayət Eyvazov bu müddətdə polis əməkdaşlarının və Daxili Qoşunların hərbi qulluqçularının gücləndirilmiş iş variantında xidmət apardığını, insanların həyati problemlərinin həllinə kömək etdiyini vurğulayıb. Qeyd olunub ki, aidiyyəti dövlət orqanları ilə qarşılıqlı əlaqədə ölkəmizdə keçirilən beynəlxalq əhəmiyyətli bütün kütləvi tədbirlərdə ictimai qayda və təhlükəsizlik yüksək səviyyədə təmin edilib.

Polis və Daxili Qoşunların milli maraqların, sabitliyin və asayişin keşiyində mətinliklə dayandığını, insan hüquq və azadlıqlarının müdafiəsi üçün böyük bir fəaliyyət ortaya qoyduğunu, bunun bariz nümunələrindən birinin də Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm qələbəmizlə nəticələnmiş Vətən müharibəsi günlərində şəxsi heyətin ölkədə hərbi vəziyyət rejimini etibarlı təmin etməsini, bu gün isə işğaldan azad olunmuş ərazilərdə öz şərəfli xidmətini böyük əzm və peşəkarlıqla davam etdirməsini xüsusi vurğulayan nazir Vilayət Eyvazov bu peşə bayramı ərəfəsində dövlət başçısının sərəncamları ilə 26 əməkdaşın dövlət mükafatları ilə təltif edildiyini, 4 rəhbər vəzifəli əməkdaşa ali xüsusi rütbə verildiyini xatırladaraq, bunun Azərbaycan Prezidentinin şəxsi heyətə göstərdiyi ali diqqət və qayğının növbəti əyani ifadəsi olduğunu bildirib. Nazir eyni zamanda dövlət başçısının daxili işlər orqanlarının və Daxili Qoşunların asayişin və təhlükəsizliyin təmini üzrə fəaliyyətini yüksək qiymətləndirdiyini, eləcə də respublika ictimaiyyəti tərəfindən təqdir olunduğunu məmnunluq hissi ilə vurğulayıb.

Daha sonra Vilayət Eyvazov qazanılan uğurlarda Azərbaycan polisinin müasir dünyagörüşlü yeni nəslini yetirən Polis Akademiyasının xüsusi rolunu qeyd edərək məzunları təhsili başa vurmaları münasibətilə təbrik edib.

Daxili işlər naziri Vilayət Eyvazov təntənəli mərasimin iştirakçıları adından əminliklə bildirib ki, polis asayişin və daxili təhlükəsizliyin qorunması işinə bundan sonra da layiqli töhfələr verəsək, qanunla müəyyən edilmiş vəzifələri və qarşıya qoyulmuş tapşırıqları tam yerinə yetirəsək.

Nazir eyni zamanda xidməti vəzifələrin icrasında daxili işlər orqanlarına hər zaman yardımçı olan, polisin peşə bayramının sevincini bölüşən vətəndaşlara, daxili işlər orqanlarının veteranlarına, dövlət qurumlarının rəhbərlərinə və əməkdaşlarına, kütləvi informasiya vasitələrinin nümayəndələrinə təşəkkürünü bildirib.

Polis Akademiyasının rəisi, polis polkovniki Canpolad Daanov ali polis təhsil ocağında təlim-tədris prosesinin təkmilləşdirilməsi və maddi-texniki bazanın daha da möhkəmləndirilməsi istiqamətində görülən işlər barədə məruzə ilə çıxış edib.

O, daxili işlər naziri Vilayət Eyvazovu əmin edib ki, akademiyanın kollektivi təlim-tədris prosesinin daha da təkmilləşdirilməsi, müasir dövrün çağırış və təhdidlərinə cavab verən ixtisaslı kadr hazırlığının həyata keçirilməsi barədə qarşıya qoyulan tələblərin, əmr və göstərişlərin tam və yüksək səviyyədə yerinə yetirilməsi üçün daim əzmlə çalışacaq, bilik və bacarıqlarını əsirgəməyəcək.

Tədbirin sonunda daxili işlər naziri Polis Akademiyasını fərqlənmə ilə bitirmiş dörd məzuna diplom və "polis baş leytenantı" xüsusi rütbələrinin paqonlarını təqdim edib.

Daha sonra döyüş bayrağı dördüncü kurs müdavimlərinə təhvil verilib. Müdavimlər "Azərbaycan Polisi" marşını ifa ediblər.

Sonda şəxsi heyət mətin addımlarla tribunanın qarşısından keçib.

# Daxili işlər naziri Azərbaycan Polisi Günü münasibətilə şəxsi heyəti və polis veteranlarını təbrik edib

Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov 2 İyul - Azərbaycan Polisi Günü münasibətilə daxili işlər orqanlarının şəxsi heyətini və veteranlarını təbrik edib.

AZƏRTAC Daxili İşlər Nazirliyinin saytına istinadla xəbər verir ki, təbrik məktubunda 1918-ci il iyulun 2-də asayişi mühafizə dəstələri ilə fəaliyyətə başlayan polis orqanlarının ötən müddətdə şərəfli xidmət yolu keçərək böyük təcrübə qazandığı, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə dövlətçiliyin dayaqlarından birinə çevrildiyi qeyd olunub.

Bildirilib ki, bu gün Azərbaycan polisi respublikamızın ərazi bütövlüyünün, dövlətin konstitusiya quruluşunun qorunmasında önəmli xidmətləri və güclü nizam-intizamı olan mühüm bir dövlət təsisatıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində fəaliyyəti daim təkmilləşən, xidməti vəzifələri səmərəli yerinə yetirmək üçün bütün lazımi şəraitə, müasir maddi-texniki bazaya və infrastruktura malik polis orqanları cinayətkarlığa, onun transmilli mütəşəkkil növlərinə qarşı mübarizədə, asayişin qorunmasında, insan hüquq və azadlıqlarının müdafiəsində əhəmiyyətli nəticələrə nail olub. Vətən müharibəsi günlərində hərbi vəziyyətin təmini vəzifələrini də layiqincə yerinə yetirib və hazırda işğaldan azad olunmuş ərazilərdə önəmli xidmətini, həmçinin xüsusi karantin rejiminə nəzarət funksiyalarını əzmlə həyata keçirir.

Xidmətdə fərqlənən əməkdaşların Prezident tərəfindən dövlət mükafatlarına layiq görülməsini dövlət başçısının bütövlükdə Azərbaycan polisinin əməyinə verdiyi böyük dəyərin əyani ifadəsi olduğunu qeyd edən nazir şəxsi heyətin sabitliyin və təhlükəsizliyin keşiyində bundan sonra da qətiyyətlə dayanacağına, peşəkarlığı, xalqa və Vətənə sədaqətli xidməti ilə yeni-yeni nailiyyətlər qazanacağına əminliyini bildirib.

General-polkovnik Vilayət Eyvazov Azərbaycan polisinin yaranmasının 103-cü ildönümü münasibətilə daxili işlər orqanlarının şəxsi heyətini və veteranlarını, vəzifə borcunu yerinə yetirərkən həlak olmuş əməkdaşların ailə üzvlərini səmimi-qəlbdən təbrik edib, onlara möhkəm cansağlığı, xoşbəxtlik, xidmətdə və şəxsi həyatda uğurlar arzulayıb.

# Azərbaycan Polisi Günü münasibətilə yeni inzibati binaların açılışı olub

**İyulun 2-də - Azərbaycan Polisi Günündə Daxili İşlər Nazirliyinin (DİN) Baş Dövlət Yol Polisi İdarəsinin və Abşeron Rayon Polis İdarəsinin Saray polis bölməsinin yeni inzibati binaları istifadəyə verilib.**





Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hər iki tədbirdə belə müasir tikililərin, ümumən, vətəndaşlara, eyni zamanda daxili işlər orqanlarına göstərilən diqqət və qayğının bariz nümunəsi olduğu məmnunluqla qeyd edilib.

Bildirilib ki, DİN-in Baş Dövlət Yol Polisi İdarəsinə müraciət edən vətəndaşların məmnunluğunun yüksək səviyyədə təmin edilməsi və onlara göstərilən xidmətin keyfiyyətinin artırılması məqsədilə inşa edilən yeni inzibati bina zəruri avadanlıq, inventar və kommunikasiyalarla təchiz olunub. Geniş dəhlizlərə və otaqlara malik ikimərtəbəli bu binada sənədlərin qəbulu və verilməsinin operativ qaydada təşkili üçün lazımi şərait yaradılıb.

Abşeron Rayon Polis İdarəsinin Saray polis bölməsinin yeni istifadəyə verilən ikimərtəbəli inzibati binası da buraya müraciət edəcək vətəndaşlara göstərilən xidmətin keyfiyyətinin daha da artırılması məqsədilə müasir standartlara uyğun olan zəruri avadanlıq, inventar və kommunikasiyalarla təchiz edilib, ərazidə abadlaşdırma və yaşıllaşdırma işləri yerinə yetirilib. Yeni inzibati binada xidmət edəcək polis əməkdaşları da Saray qəsəbəsində sabitliyin, sakinlərin əmin-amanlığının qorunmasına, cinayətkarlıqla mübarizəyə, insan hüquq və azadlıqlarının təmininə, vətəndaşların təhlükəsizliyinin, əmlaklarının cinayətkar qəsdlərdən qorunmasına öz töhfələrini verəcəklər.

# Mədəniyyət naziri Milli Dram Teatrının yaradıcı heyəti ilə görüşüb




**İyulun 1-də Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının yaradıcı heyəti ilə görüşüb.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, teatrın bədii rəhbər-direktoru, Xalq artisti, professor Azər Paşa Nemətov nazirə mədəniyyət ocağının uğurları, repertuarda olan tamaşaları, texniki imkanları haqqında məlumat verib.

Mədəniyyət naziri Anar Kərimov böyük tarixə malik olan Akademik Milli Dram Teatrında yaradıcı kollektivlə görüşməkdən məmnun olduğunu bildirib. Ölkəmizdə mədəniyyət sahəsinin inkişafı ilə bağlı Prezident İlham Əliyev tərəfindən nazirlik qarşısında mühüm vəzifələrin qoyulduğunu qeyd edən Anar Kərimov dövlətin bu sahəyə diqqət və qayğısından söz açıb. Bildirib ki, Mədəniyyət Nazirliyi teatr sahəsində islahatları özünün ən vacib, prioritet istiqamətlərindən biri hesab edir: "Çünki teatr tarixən milli ruhun qorunub saxlanılmasında böyük rol oynayıb. Məqsədimiz, amalımız odur ki, teatr inkişaf etsin. Biz Azərbaycan teatr sənətinin zəngin ənənələrini daha da inkişaf etdirməliyik. Teatrın inkişafına, yeni uğurlar qazanmasına dövlətin hər zaman dəstəyi olub, bundan sonra da olacaq".

Nazir əlavə edib ki, bir əsrdən çox tarixi olan Akademik Milli Dram Teatrında böyük sənətkarlar çalışıb, teatrda Azərbaycan və dünya dramaturgiyasının bir çox nümunələri tamaşaya qoyulub, bu səhnədə təqdim olunan tamaşalar eyni zamanda bizə tariximizi, ədəbi irsimizi tanıdıb, mənəvi dəyərlərimizi, milli kimliyimizi təlqin edib.

Pandemiyanın, mədəniyyətin digər sahələri kimi, teatr sahəsinə də zərbə vurduğunu, yaradıcı fəaliyyəti məhdudlaşdırdığını deyən Anar Kərimov tezliklə teatr müəssisələrinin fəaliyyətə başlayacağına və öz tamaşaçılarını yeni səhnə əsərləri ilə sevindirəcəyinə ümid etdiyini bildirib.

Xalq artistləri Nurəddin Mehdixanlı və Rafiq Əzimov çıxış edərək teatrın müasir cəmiyyətin həyatında oynadığı mühüm roldan danışıb, mədəniyyət nazirinə kollektivlə görüşdüyü üçün təşəkkürlərini bildiriblər.

# Azərbaycan-Türkiyə birgə təlimlərində təlim-döyüş tapşırıqları uğurla yerinə yetirilib



Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən, Bakıda keçirilən "Mustafa Kamal Atatürk-2021" birgə döyüş atışlı taktiki təlimlərində növbəti təlim-döyüş tapşırıqları icra edilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlər zamanı 1-ci eşelon bölmələrin həmlə həddinə çıxması, şərti düşmənin mina sahələrində keçidlərin açılması və həmin sahələrdən keçməsi, şəxsi heyətin texnikalardan piyadalanması və həmləyə keçməsi fəaliyyəti də icra olunub.

# "Anadolu Qartalı-2021" beynəlxalq taktiki-uçuş təlimində sonuncu mərhələnin tapşırığı icra edilib




Türkiyənin Konya şəhərində keçirilən "Anadolu Qartalı-2021" beynəlxalq taktiki-uçuş təlimində iştirak edən Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) hərbi pilotları sonuncu mərhələnin tapşırıqlarını uğurla yerinə yetiriblər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ssenariyə əsasən, təlimə cəlb olunan hərbi pilotlar tərəfindən qalxma və enmə, şərti hava və yer hədəfinin məhv edilməsi, kiçik və orta hündürlükdə çətin pilotaj və döyüş manevrləri üzrə tapşırıqlar icra olunub. Hərbi pilotlarımız şərti düşmənin yerüstü hədəflərinin koordinatlarını təyin etməklə hava kəşfiyyatı da həyata keçiriblər.

Azərbaycan HHQ-nin hərbi pilotları xüsusi peşəkarlıq nümayiş etdirərək təlimdə qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetiriblər.

# Ermənistan silahlı qüvvələrinin bir neçə üzvünün təqsirləndirilməsi ilə bağlı məhkəmə baxışı keçirilib

**Ermənistan silahlı qüvvələrinin bir neçə üzvünün təqsirləndirilməsi ilə bağlı olaraq məhkəmə baxışı keçirilib.**

AZƏRTAC xəbər verir ki, prosesə sədrlik edən hakim iştirakçıları yoxladıqdan sonra tərəflərə söz verib. Əvvəlcə dövlət ittihamçısı çıxış edərək elan olunan ittiham barədə danışıb, işin materiallarındakı ittiham üçün önəmli xüsusatlara toxunub.

İttiham tərəfinin çıxışından sonra hakim elan edilmiş ittihamın mahiyyətini təqsirləndirilən şəxslərə izah etdikdən sonra onların hüquq və vəzifələri barədə məlumat verib.

Hakim tərəflərə prosessual ardıcıllıqla, yəni əvvəlcə ittiham, daha sonra müdafiə tərəfinin sübutlarını təqdim etməsini bildirib. Hər iki tərəf ardıcıllıqla öz sübutlarını məhkəməyə təqdim edib.

Məhkəmə prosesi zamanı təqsirləndirilən şəxslərə söz verilərək, onların ifadələri dinlənilib.

Dövlət ittihamçısı işin materiallarını oxuyub təhlil edərək lazımi xüsusatlar üzrə təqsirləndirilən şəxslərə suallar verib.

Dövlət ittihamçısı cinayət işinin materialları ilə tanış olub sübutları təhlil edərək, ittihamın mahiyyəti barədə proses iştirakçılarına məlumat verib, həmçinin lazımi sübutları məhkəməyə təqdim edib.

Məhkəmə prosesində tərəflərin təqdim etdiyi sübutlar tədqiq olunub.

# Dövlət Təhlükəsizliyi Xidmətinin Akademiyasında növbəti məzun buraxılışı ilə bağlı tədbir keçirilib

**Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Heydər Əliyev adına Akademiyasında iyulun 1-də növbəti məzun buraxılışına həsr olunan təntənəli tədbir keçirilib.**

AZƏRTAC DTX-nin saytına istinadla xəbər verir ki, tədbirdə xidmətin rəisi, general-polkovnik Əli Nağıyev, rəhbər heyət, akademiyanın professor-müəllim heyəti və məzunların valideynləri iştirak ediblər.

Əvvəlcə, müasir Azərbaycanın banisi və qurucusu Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi dərin ehtiramla yad edilib, akademiyanın "Şöhrət" muzeyi qarşısında ucaldılmış abidəsi önünə gül dəstəsi qoyulub.

Sonra Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət himni səsləndirilib.

Akademiyanı bitirən gənc zabitlərə diplomlar təqdim edildikdən sonra Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyev şəxsi heyəti salamlayaraq bu əlamətdar gün münasibətilə məzunları, onların valideynlərini, akademiyanın professor-müəllim heyətini təbrik edib, gənc zabitlərə gələcək xidmətlərində müvəffəqiyyətlər arzulayıb.

General-polkovnik Əli Nağıyev çıxışında dahi şəxsiyyət Heydər Əliyevin adını daşıyan təhsil ocağının məzunlarının Ulu Öndərin vətənpərvərlik və peşəkarlıq irsini layiqincə davam etdirəcəklərinə, qazandıqları bilikləri doğma Vətənin qüdrətlənməsinə, müstəqilliyinin və təhlükəsizliyinin qorunmasına səfərbər edəcəklərinə, bu istiqamətdə yorulmadan çalışacaqlarına inamını ifadə edib. Bildirilib ki, Azərbaycan təhlükəsizlik orqanlarında xidmətə başlayacaq hər bir gənc zabit nizam-intizamı əsas tutmaqla peşəkarlıq səviyyəsini davamlı olaraq yüksəltməli, ona göstərilən etimadı doğrultmaq üçün mütəmadi öz üzərində işləməli, dövlətinə sədaqətli olmalı, qarşısında qoyulan vəzifələrin öhdəsindən layiqincə və vicdanla gəlməli, dövlət təhlükəsizliyinin etibarlı təminatı üçün qətiyyətlilik və prinsipiallıq nümayiş etdirərək bu yönümdə daim əzmlə çalışmalıdır.

Xidmət rəisi dövlət başçısının yürütdüyü müdrik və uzaqgörən siyasət xəttinin prioritet istiqaməti kimi elmin və təhsilin inkişafını xüsusi vurğulayaraq bildirib ki, hazırda akademiyada yüksəksəviyyəli təhsil almaq üçün hərtərəfli şərait yaradılıb. Bu da, öz növbəsində, gələcəkdə təhlükəsizlik orqanlarının ixtisaslı, peşəkar kadrlarla təmin edilməsi və kadr potensialının müasir tələblər səviyyəsinə uyğunlaşdırılmasına xidmət edir.

Qeyd olunub ki, ümumilikdə xidmətin maddi-texniki təminatının möhkəmləndirilməsi, əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi və iş şəraitinin yaxşılaşdırılması Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin bu mühüm dövlət təsisatına göstərdiyi xüsusi diqqət və qayğının bariz göstəricisidir.

Müzəffər Ali Baş Komandanın qətiyyətli sərkərdəliyi, xalqın sarsılmaz birliyi və həmrəyliyi ilə rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı şanlı Qələbə sayəsində 30 ilə yaxın müddət ərzində düşmən tapdağı altında qalan torpaqlarımızın işğaldan azad olunmasına toxunan xidmət rəisi 44 günlük savaşda Vətənimizin qəhrəman oğullarının nümayiş etdirdikləri igidlik və cəsurluğun hər bir gənc hərbi qulluqçu üçün nümunə olduğunu diqqətə çatdırıb. Hərb tariximizə qızıl hərflərlə yazılan Zəfər salnaməmizə Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarının verdiyi töhfələri xüsusi vurğulayan general-polkovnik Əli Nağıyev bildirib ki, Vətən müharibəsində göstərdikləri qəhrəmanlıq nümunələrinə görə DTX-nin çoxlu sayda əməkdaşı fəxri ad, orden və medallarla təltif olunub.

Vətən müharibəsinin regionda yaratmış olduğu yeni reallıqların fonunda ağır məğlubiyyətə düçar edilmiş Ermənistandakı radikal dairələr, aparıcı dünya ölkələrindəki erməni diasporu və onların bilavasitə himayəsində olan qüvvələr Azərbaycana qarşı kəşfiyyat-pozuculuq fəaliyyətlərini gücləndirməyə çalışır, revanşist ideyaları təbliğ edirlər. Bu amillər dövlətimizin təhlükəsizliyinə yönəlmiş təhdidlərlə mübarizənin daha yüksək əzmlə, çevikliklə və operativliklə aparılmasını şərtləndirir.

Xidmət rəisi DTX-nin şəxsi heyətinin respublikamızda mövcud sabitlik, əmin-amanlıq, ölkəmizin milli maraq və mənafeləri əleyhinə məkrli niyyətlərin və planların qarşısını qətiyyətlə alacağına, təhlükəsizliyin etibarlı təminatı üçün usanmadan çalışacağına əminliyini bildirərək qeyd edib ki, bütün qüvvə və vasitələr səfərbər olunmaqla DTX-nin əməkdaşları tərəfindən Ali Baş Komandan İlham Əliyevin əmr və göstərişləri bundan sonra da vaxtında və layiqincə yerinə yetiriləcək.

Sonra tədbir akademiyanın rəisinin və bu təhsil müəssisəsini fərqlənmə diplomu ilə bitirmiş kursantın çıxışları ilə davam edib.

Tədbirin sonunda məzunların valideynləri akademiyada yaradılan hərtərəfli şəraitə, kursantlara göstərilən diqqət və qayğıya görə dövlət başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını ifadə edib, övladlarının Vətənin təhlükəsizliyinin müdafiəçiləri olaraq xidmətə başlamalarından qürur duyduqlarını bildiriblər.

Təntənəli mərasim Ulu Öndər Heydər Əliyevin akademiyanın "Şöhrət" muzeyi önündə ucaldılmış abidəsi qarşısında xatirə şəklinin çəkdirilməsi ilə başa çatıb.

# DSX-nin "Süvarilər" dəstəsinin təqdimatında Qarabağ atları "Royal Windsor Horse Show" adlı tədbirdə nümayiş etdirilib

Dövlət Sərhəd Xidmətinin (DSX) "Süvarilər" dəstəsinin təqdimatında Qarabağ atları "Royal Windsor Horse Show" adlı tədbirdə nümayiş etdirilib. Tədbirdə iştirak Azərbaycan Respublikası Atçılıq Federasiyasının (ARAF) təşkilatçılığı və "Kapital Bank"ın dəstəyi ilə baş tutub.









Britaniya Kraliçası II Elizabetin doğum günü ərəfəsində təşkil olunan tədbirdə "Xarıbülbül" adı ilə təqdim olunan xüsusi proqram yarış izləyiciləri tərəfindən böyük maraqla qarşılanıb. Azərbaycanın Əməkdar artisti Nicat Kazımovun rejissorluq etdiyi proqramda Qarabağ atlarının belində nümunəvi hərəkətlər icra edən Dövlət Sərhəd Xidmətinin 14 süvarisi, xoreoqraf, Azərbaycan Respublikasının Əməkdar artisti Nailə Məmmədzadənin rəhbərliyi ilə "Sərhədçi" rəqs ansamblı və alov püskürən qrup iştirak edib.

Artıq 78 ildir təşkil olunan "Royal Windsor Horse Show" atçılıq tədbirinin ayrılmaz hissəsinə çevrilən Azərbaycan musiqisi, milli rəqsimiz və xüsusilə də milli atçılıq cinsi olan Qarabağ atları britaniyalılar tərəfindən hər zaman olduğu kimi, böyük rəğbətlə qarşılanıb. İyulun 4-dək davam edəcək tədbirlərdə Azərbaycan iştirakçılarının ümumilikdə dörd çıxışı nəzərdə tutulub.

***"Azərbaycan"***

# Azərbaycanda koronavirus infeksiyasından daha 63 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 63 nəfər müalicə olunaraq sağalıb, 101 yeni yoluxma faktı qeydə alınıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 336 min 223 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 330 min 338 nəfər müalicə olunaraq sağalıb, 4977 nəfər vəfat edib. Aktiv xəstə sayı 908 nəfərdir.

Ötən müddət ərzində 3 milyon 767 min 982 test aparılıb. Dünənki test sayı isə 9851-dir.

# İyulun 2-də Azərbaycanda COVID-19-a qarşı 74 minə yaxın doza vaksin vurulub

**İyulun 2-də Azərbaycanda yeni koronavirus (COVID-19) infeksiyasına qarşı 73 min 621 doza vaksin vurulub.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, onlardan birinci mərhələ üzrə vaksinasiyadan keçənlərin sayı 33 min 992, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 39 629 nəfər olub.

Hazırkı dövrədək ölkəmizdə vurulan vaksin dozalarının ümumi sayı 3 milyon 670 min 729-a bərabərdir. Birinci mərhələ üzrə vaksin vurduranların sayı 2 milyon 290 min 808, ikinci mərhələ üzrə peyvənd olunanların sayı 1 milyon 379 min 921 nəfərdir.

# Dağıtmaq üçün doğulmuşlar qurub-yarada bilməsələr də...

## Azərbaycan Ermənistana regionda sülh və əməkdaşlıq istiqamətində addımlar atmağı tövsiyə edir

*Əvvəli 1-ci səh.*

Buna baxmayaraq, Azərbaycan bütün istiqamətlərdə konkret addımlar atır və beynəlxalq iqtisadi əlaqələrini gücləndirir. Bu baxımdan son vaxtlar Prezident İlham Əliyevin keçirdiyi qəbullar xüsusi maraq kəsb edir. Dövlətimizin başçısının iyunun 23-də Rusiya Prezidenti Vladimir Putinlə telefon söhbəti zamanı Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli bəyanatlarının həyata keçirilməsinin praktiki aspektlərinə toxunulmuş, hər iki tərəf Cənubi Qafqazda iqtisadi əlaqələrin və nəqliyyat kommunikasiyalarının bərpası üzrə üçtərəfli formatda işin fəallaşdırılmasına, Azərbaycan-Rusiya strateji tərəfdaşlığının daha da möhkəmləndirilməsinə xüsusi diqqət yetirmişlər.

İyun ayının üçüncü dekadasının ilk günlərində Azərbaycan Prezidenti Qazaxıstan Respublikasının Baş nazirinin müavini, xarici işlər naziri Muxtar Tleuberdini, Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) iqtisadiyyat naziri Abdulla Bin Touq Al Marrini qəbul etmişdir. İkitərəfli söhbətlərdə iqtisadi əlaqələrə, investisiya layihələrinin və nəqliyyat dəhlizlərinin inkişafına toxunulmuş, ticarət dövriyyəsinin artırılması, ticari-iqtisadi əməkdaşlığın şaxələndirilməsi və qarşılıqlı ixracın genişləndirilməsi barədə fikir mübadiləsi aparılmışdır.

Prezident İlham Əliyevin iyunun 23-də BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinosu qəbul etməsi də beynəlxalq müstəvidə aparılan danışıqların bölgədə sülhə, əmin-amanlığa və quruculuğa səmtləndiyini təsdiq edir. BMT-nin ali nümayəndəsi bu görüşdən məmnun olduğunu, xüsusən də Azərbaycan Prezidentinin uğurlarından son dərəcədə təsirləndiyini dilə gətirmişdir: "Ağdamda bəyanatımda, yekun bəyanatımda dedim ki, mən bir növ qarışıq hisslər keçirirəm. Birincisi, siyasi və peşəkar həyatımda heç vaxt görmədiklərimin şahidi oldum. Heç nə yoxdur, tamamilə dağıntıdır. İnsan kədərlənir ki, XXI əsrdə belə bir halın necə şahidi olmaq olar? İkincisi, düşünürəm ki, Ağdama səfərim yaxşı keçdi, çünki Sizin xüsusi nümayəndəniz mənə gələcək üçün planı göstərdi. Bu, böyük baxışdır, cənab Prezident. Yolları, insanların məşğul olduğunu, dinamikanı görmək imkanı böyük qürur hissi verir. Azərbaycan hər zaman inkişaf edib və bu inkişaf daha da güclənəcək. Mən özümü hər zaman Azərbaycanın dostu hesab etmişəm, bu dəfə də Sizinlə olmaqdan və BMT Sivilizasiyalar Alyansının ali nümayəndəsi qismində yeni missiyamda Sizin səylərinizi, Xarici İşlər Nazirliyini və Mədəniyyət Nazirliyinizi dəstəkləməyə çalışmaqdan qürur duyuram".

Əslində, BMT-nin nümayəndəsinin dediyi bu sözlər işğal edilmiş ərazilərdə qəddar və amansız erməni faşizminin 30 il tüğyan etməsinin ifşasıdır, onun amansızlığını təsdiq edən ifadədir.

Dövlətimizin başçısı da müharibədən sonra Ağdama ilk səfərini xatırlayaraq demişdir: "Mən qəmginlik hissi, kədər hissi, eyni zamanda şəhərin yenidən qurulması ilə bağlı qətiyyət hissi keçirirdim. Yəqin sizə məlumat verilib ki, bir aydan da az vaxtda biz artıq yenidənqurma prosesinə başladıq. Siz gördünüz, hər şey dağılıb. Eyni zamanda təkcə Ağdam rayonunda 97 min mina basdırılıb. Biz Ermənistandan yalnız Ağdam rayonu üzrə mina xəritələrini ala bilmişik, digər rayonlarda yüz minlərlə mina var. Onlar xəritələri bizə verməkdən imtina edirlər və bizdə artıq 100-dən çox ölən və yaralanan oldu".

Göründüyü kimi, Azərbaycan Prezidenti emosiyaları kənara qoymuş, soyuqqanlıqla erməni faşizmini ifşa edən faktları sadalamışdır. Bütün bu cizgilər qəddar erməni faşizminin iç üzünü açır. Dövlətimizin başçısı aqressiv erməni faşizminin törətdiklərini sadalasa da, qətiyyətlə Azərbaycanın düşmənçiliyə yox, quruculuğa və islahatlara istiqamətləndiyini diqqətə çatdırmışdır: "Bütün kəndlər, bütün şəhərlər dağıdılıb. İndi biz onları minalardan təmizləməli, həmçinin paralel olaraq yenidənqurmaya başlamalıyıq. Biz artıq bütün səylərimizi toplamışıq, bütün resurslarımızı səfərbər etmişik. Böyük infrastruktur layihələrinə artıq başlanıb. Sizə bəlkə də bununla bağlı məlumat verilib. Biz onları yenidən quracağıq və düşünürəm ki, bu miqyasda dağıntıdan inkişafa, insanlar üçün layiqli yaşayış standartlarına doğru dünyada nadir təcrübə nümayiş etdirəcəyik".

Həqiqətən, müharibədən keçən qısa müddət ərzində Azərbaycanda, o cümlədən işğaldan azad edilmiş ərazilərdə qeyri-adi layihələrin icrasına, yeni texnologiyaların tətbiqinə, o cümlədən "ağıllı" şəhər və kəndlərin salınmasına, müasir yolların çəkilməsinə, aeroportların inşasına, bir sözlə, Qarabağın sürətlə dirçəlməsinə başlanmışdır.

Bəs Ermənistan nə edir? Orada hakimiyyət uğrunda savaş gedir, rəqibləri Paşinyana uduzsalar da, geri çəkilmək istəmirlər. Bu isə o deməkdir ki, faşist ideologiyası hakim kəsilən ölkədə dinclik və əmin-amanlıq tezliklə olmayacaq. Çünki bu ideologiyanın ana xəttini əbədi düşmən axtarışında olmaq, onu məhv etmək təşkil edir. Bu azmış kimi, Qarabağ erməniləri ilə yerli ermənilər arasında qütbləşmə dərinləşir. Blogerlər Qarabağdakı erməniləri söyürlər ki, necə olur, türklərə düşmən deyirsiniz, amma yediyiniz portağal, kartof, hətta soğanı da türklərdən alırsınız? Qarabağda itkin düşən əsgər valideynləri bu gün Yerevanda piket keçirir, Xankəndidə isə Araik mitinqdə məğlubiyyətin səbəblərini izah edir. Ümumiyyətlə, bu mövzu erməni siyasi müstəvisinin ana xəttidir. Hamı düşmən axtarışındadır, hamı bir-birilə kəllə-kəlləyə gəlməyə hazırlaşır. Bu, erməni xalqının psixologiyasının anomaliyası yox, faşizmin kompasıdır.

Yeri gəlmişkən, bizdə bəzi müxalif qüvvələr car çəkirlər ki, Ermənistandakı seçkilərdə demokratiya qalib gəldi. Gülünc fikirdir. Yaxın keçmişdə Qarabağda - özgə torpaqlarında "inauqurasiya" keçirən, yallı gedən, bir neçə saata Bakı bulvarında göbək atıb rəqs etmək istəyən "lider" nə vaxtdan demokrat oldu?

Bu baxımdan İlham Əliyevin Pakistanın ordu generalı Qamar Caved Bacvanı qəbul etməsi də diqqətçəkən görüşlərdəndir. Dövlətimizin başçısı görüşdə məxsusi vurğulamışdır ki, Pakistan bizim torpaqlarımızın işğalı səbəbindən Ermənistanı tanımayan və onunla diplomatik əlaqələr qurmayan azsaylı ölkələrdən biridir: "Biz hər zaman Azərbaycanı kimin dəstəklədiyi və müharibə zamanı bizi kimin dəstəklədiyi barədə mesaj veririk. Ona görə də bütün şəhər və ölkəboyu Pakistan bayraqlarının olması təəccüblü deyil, bunun nəticəsində ölkələrimiz və xalqlarımız arasındakı qardaşlıq güclənəcək".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***


## Azərbaycan İnvestisiya Holdinqi katriclərin satın alınması məqsədilə *açıq tender elan edir*

Tenderdə katriclərin təchizatı sahəsində ixtisaslaşan peşəkar rezident mikro, kiçik və orta sahibkarlıq subyektləri, yaxud yeni hüquqi şəxs yaratmadan hüquqi şəxslər birliyi (konsorsium da daxil olmaqla) iştirak edə bilərlər.

Tender iştirakçılarına təklif edilir ki, dövlət satınalmalarının **https://www.etender.gov.az** vahid internet Portalına elektron imzaları ilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər 180 (yüz səksən) manat məbləğində iştirak haqqını aşağıda göstərilən bank hesabına "ASAN ödəniş" vasitəsilə köçürdükdən sonra tenderin Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər:

**Emitent**
**Kapital Bank ASC Mərkəz filialı**
**Bank kodu: 200026**
**VÖEN: 9900003611**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. BIK: AIIBAZ2X**
**Alan**
**Azərbaycan İnvestisiya Holdinqi**
**VÖEN: 1702893761**
**H/H: AZ13AIIB38060019440818786102**

**İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.**
**İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

*1. Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*2. Tenderin iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*3. Tender təklifi (qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra azı 30 bank günü təşkil etməlidir);*
*4. Tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (qiymət təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
*5. Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
*7. İddiaçının son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;*
*8. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı);*
*9. İddiaçının mikro, kiçik və orta sahibkarlıq sublekti meyarlarına uyğun olması barədə arayış (Dövlət Statistika Komitəsi tərəfindən təqdim edilir);*
*10. İddiaçının ilkin qeydiyyat sənədlərinin və onlara edilmiş əlavə və düzəlişlərin müvafiq qaydada təsdiqlənmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə) və rekvizitləri;*
*11. Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
*12. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd;*
*13. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd;*
*14. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə sənəd;*
*15. İddiaçının son 3 (üç) il ərzində oxşar müqavilələr üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
*16. İddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
*17. Müqavilə üzrə işlərin icrasına cəlb ediləcək subpodratçılar barədə məlumat.*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirlərsə, konsorsium barədə müqavilə, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

Tender predmeti üzrə katriclər (11 adda, 222 ədəd) satınalma müqaviləsi imzalandığı tarixdən etibarən 1 (bir) gün müddətində Bakı şəhəri, Səbail rayonu, Azərbaycan prospekti, 6 ünvanına təqdim olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun həyata keçirilir.

Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:

a) təqdim ediləcək malların dəyəri;

b) malların təqdim edilməsi müddəti.

İddiaçılar öz təkliflərini Əsas şərtlər toplusunda göstərilən müddəalara uyğun olaraq hazırlamalı, tenderdə iştirak etmək üçün sənədləri (tender təklifi və təklifin bank təminatı istisna olmaqla) **29 iyul 2021-ci il saat 17:00-dək** tender təklifini və təklifin bank təminatını isə **06 avqust 2021-ci il saat 17:00-dək** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri **09 avqust 2021-ci il saat 11:00-da** açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır. İddiaçılar açılışın formatı ilə dövlət satınalmalarının vahid internet Portalında tanış ola bilərlər.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

İddiaçılar Tender komissiyasına Əsas şərtlər toplusunun izah edilməsi ilə bağlı tender təkliflərinin verilməsi müddətinin qurtarmasına azı 4 bank günü qalanadək sorğu verə bilər. Sorğu tender təkliflərinin verilməsi müddətinin qurtarmasına azı 2 bank günü qalanadək cavablandırılır və bu cavab sorğu verənin ünvanı göstərilmədən tenderin Əsas şərtlər toplusunu almış bütün iddiaçılara göndərilir.

Səmərəli rəqabətin təmin edilməsi və elektron satınalmanın baş tutması üçün qeydiyyatdan keçməli olan malgöndərənlərin (podratçıların) minimal sayı 3-ə bərabərdir. Tenderdə iştirak etmək üçün təklif vermiş iddiaçıların sayı 3-dən az olduqda satınalan təşkilat tenderin davamından imtina edir və bu barədə məlumatı tenderin elan olunduğu mətbuat orqanında 5 bank günü ərzində dərc etdirir və rəsmi internet saytında yerləşdirir.

İddiaçıların şikayət edəcəkləri pozuntu barədə xəbər tutduqları və ya xəbər tutmalı olduqları andan etibarən 15 bank günü ərzində "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanunu ilə müəyyən edilmiş qaydada şikayət vermək hüququ vardır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar: Təşkilati-təminat departamentinin maddi-texniki təminat şöbəsinin müdiri vəzifəsini icra edən (Babək Amaşov, telefon: (012) 599-87-80, daxili nömrə: 2008, otaq № 311, elektron poçt ünvanı: babek.amashov@aih.az).

***QEYD.*** *Tenderdə iştirak, təkliflərin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə aparılır.*

***Tender komissiyası***



## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi tərəfindən 26 aprel 2021-ci il tarixdə **www.etender.gov.az** Portalında, 27 aprel 2021-ci il tarixdə "Azərbaycan" qəzetində özünüməşğulluq proqramı çərçivəsində satın alınan inventar, maşın və avadanlıqların saxlanması üçün anbar xidmətlərinin satın alınmasına dair dərc edilmiş açıq tenderdə Tender komissiyasının qərarı ilə **"ABŞERON EXPRESS" MMC** müsabiqənin qalibi elan olunmuşdur.

Qalib təşkilatla satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# İŞİMİZ, GÜZƏRANIMIZ

# İlham Əliyev növbəti möhtəşəm layihəsini gerçəkləşdirir

## Xəzər sahilində yaradılan azad iqtisadi zona qeyri-neft sektorunun lokomotivinə çevriləcək



*Əvvəli 1-ci səh.*

Azad zonaların problemlərinə həsr edilmiş müasir nəzəri işlərdə onların mahiyyəti daha geniş izah olunur: onlar dövlətin iqtisadi proseslərə müdaxilə etməsinin həcminin azaldılması aləti kimi göstərilir. “Azad zona” anlayışına bu cür izahat verilməsi, onun təsərrüfatlaşdırmanın preferensial rejiminin fəaliyyəti ilə əlaqədar bütün prosesləri əhatə etməsi deməkdir. Bu cür yanaşmaya görə “azad zona təkcə ayrılmış, xüsusi bir coğrafi ərazi deyil, əksinə, milli iqtisadi məkanın bir hissəsi olmaqla, burada ölkənin digər yerlərində istifadə olunmayan müəyyən güzəşt və stimullar sistemi tətbiq edilir”.

Azad iqtisadi zonaların yaradılması bir qayda olaraq ayrı-ayrı ərazi və regionların iqtisadi inkişafına, konkret prioritet iqtisadi məsələlərin həllinə, strateji proqram və layihələrin reallaşdırılmasına yönəldilmiş ciddi bir işdir. Təcrübə göstərir ki, azad iqtisadi zonalarda yaradılmış güzəştlər sistemi bu ərazidə reallaşdırılan proqramlarla birbaşa və sıx əlaqəyə malikdir. Dünya təsərrüfatındakı təcrübəyə əsaslanaraq onu da qeyd edək ki, AİZ-in yaradılması zamanı bəyan edilən ilkin məqsəd və vəzifələr demək olar heç vaxt faktiki inkişafın nəticələri ilə üst-üstə gəlmir. Azad iqtisadi zonaların yaradılmasında iki yanaşma mövcuddur. Onların yaradılmasının ərazi konsepsiyası özündə tətbiq edilən ölkənin digər ərazilərindən ayrılmış elə bir ərazisini əks etdirir ki, burada yerləşən müəssisələr üçün xüsusi güzəştli rejim tətbiq edilir. Nöqtəvi konsepsiyaya görə isə yaradılan azad iqtisadi zonalarda güzəştli rejimlər yalnız sahibkarlıq fəaliyyətinin müəyyən bir növünə şamil edilir. Bu zaman təsərrüfat subyektlərinin coğrafi yerləşməsi heç bir əhəmiyyət daşımır. Misal kimi nöqtəvi zonalara Meksikadakı “Makiladoras” ərazisini göstərmək olar. Bu konsepsiya firmalara öz fəaliyyətlərini həyata keçirmək üçün istədikləri optimal rayonu seçməyə imkan yaradır. Azad iqtisadi zonaların yaradılmasında başlıca məqsəd ölkələrin beynəlxalq əmək bölgüsündə baş verən inkişaf proseslərinə fəal surətdə qoşulmaqdır. Söhbət ixrac üçün rəqabətqabiliyyətli məhsul istehsalının genişləndirilməsi və bu yolla da valyuta daxilolmalarının artımının təmin edilməsindən gedir.

Bəs azad iqtisadi zonanın yaradılması ölkəmizə nə verəcək? Məlumdur ki, indi dünyada yeni texnologiyalardan istifadə etməklə maya dəyəri aşağı, keyfiyyəti yüksək olan və daha çox məhsul istehsal etmək uğrunda ciddi bir yarış gedir. İndi dünya bazarında layiqli yer tutub onun qorunması qeyd edilən amillərdən asılıdır. Ələt Azad İqtisadi Zonasının yaradılmasında da əsas məqsəd budur.

Burada qabaqcıl idarəetmə təcrübəsinə uyğun yüksək əlavə dəyərli və ixracyönümlü istehsalı təmin etməklə, innovativ texnologiyalardan yararlanmaqla xarici investisiyaların cəlb edilməsi başlıca məqsəd daşıyır. Bununla yanaşı, həmin prosesə yerli şirkətləri də cəlb etməklə ölkə iqtisadiyyatının dinamik inkişafına nail olmaq qarşıya qoyulur. Yerli şirkətlərin xarici şirkətlərlə birlikdə fəaliyyət göstərməsi ölkəmizdə qabaqcıl texnologiyalarla tanışlıqla bərabər, milli kadrların yetişdirilməsində də mühüm rol oynayacaq.

Azad iqtisadi zonaların yaradılmasını çox ölkələr istəyir. Ancaq bütün ölkələr bu imkandan istifadə edə bilmir. Bunun üçün ilk növbədə həmin ölkədə siyasi sabitlik və dinamik inkişaf mövcud olmalıdır. İkincisi, münbit investisiya mühitinin olması zəruridir. Üstəlik, investisiyaların qanunla qorunması mütləq şərtdir. Digər tərəfdən, ölkə mükəmməl nəqliyyat-infrastruktura malik olmalıdır və dünya bazarına çıxışda problem yaşamamalıdır. Azərbaycanda qeyd edilən bütün bu şərtlər mövcuddur. Məsələn, Ələt Azad İqtisadi Zonası Ələt Beynəlxalq Dəniz Limanında yerləşir. Eyni zamanda beynəlxalq əhəmiyyətli “Şərq-Qərb” və “Şimal-Cənub” dəhlizlərinin də ölkəmizin ərazisindən keçməsi bu zonaların yaradılmasına müsbət dinamika qatan faktorlardır.

Ümumiyyətlə, Azərbaycan dünyada mükəmməl infrastruktura malik ölkə kimi tanınır. İnvestisiyaların cəlb edilməsində bu amil mühüm rol oynayır. İnvestorlar bu məsələdə daha çox beynəlxalq təşkilatların açıqladığı hesabatlara etibar edirlər. Dövlət başçısının dediyi kimi, investorlar ilk növbədə, Dünya Bankını “Doing Business” hesabatlarına və Davos Ümumdünya İqtisadi Forumunun reytinq cədvəllərinə baxırlar. Davos Forumunun hesabatında ölkəmiz elektrik enerjisi təchizatı sahəsində dünyada 2-ci, dəmir yolu xətlərinin səmərəliliyinə görə, 11-ci, hava nəqliyyatının səmərəliliyinə görə, 12-ci, avtomobil yollarının keyfiyyətinə görə, 24-27-ci yerlərdə qərarlaşıb. Xəzər gəmiçilik xidmətlərinə görə isə 25-ci yeri tutub. Bütün bu üstünlüklərə nail olmağımızın əsas səbəbi ölkəmizdə vaxtında həyata keçirilən infrastruktur layihələridir. Sözsüz ki, həmin layihələrin icrası üçün ölkəmizdə geniş miqyasda sosial-iqtisadi islahatlar aparılıb. Dünya Bankının “Doing Business” hesabatında Azərbaycanda dünyanın 190 ölkəsi arasında aparılan uğurlu islahatlara görə, 28-ci yerə layiq görülüb.

Bir faktı da xüsusilə qeyd etmək lazımdır. Prezident İlham Əliyevin uzaqgörənliklə apardığı məqsədyönlü siyasət nəticəsində ölkəmiz beynəlxalq əhəmiyyətli nəqliyyat qovşağına çevrilib. Əlbəttə, bu, ölkəmizə asan başa gəlməyib. Belə ki, həmin layihələrin icrasına böyük dövlətlər və beynəlxalq güclər hər vəchlə mane olmaq istəyirdilər. Bunun üçün ölkəmizə müxtəlif yollarla siyasi və maliyyə təzyiqi göstərirdilər. Məsələn, Bakı-Tbilisi-Qars dəmir yolu xətti çəkilərkən Gürcüstan ərazisindən keçən hissənin yenidən qurulmasına beynəlxalq banklar vasitəsilə kreditlərin qoyulmasına mane oldular. Belə olan halda Prezident İlham Əliyev siyasi qətiyyət göstərərək bu xəttin maliyyələşməsini ölkəmizin vəsaiti hesabına həyata keçirdi. İndi bunun sayəsində “Şərq-Qərb” və “Şimal-Cənub” marşrutlarının açar ölkəsi Azərbaycandır.

Ələt Azad İqtisadi Zonasının yaradılması ölkəmizdə iqtisadi inkişafa təkan verməklə yanaşı, sosial məsələlərin həllinə də geniş imkanlar açacaq. İlkin hesablamalara görə, bu iqtisadi zonada 10 min yeni iş yeri açılacaq. Belə hal insanların gəlir əldə etməsinə və öz güzəranlarını yaxşılaşdırmağa imkan verəcək. Prezident İlham Əliyev Azərbaycan Televiziyasına verdiyi müsahibəsində Ələt Azad İqtisadi Zonasının ölkəmiz üçün əhəmiyyətini vurğulayaraq demişdir: “Beləliklə, bir ildən sonra - gələn ilin iyul ayında zona investorları qəbul etməyə hazır olacaq. Əminəm, biz görəcəyik ki, bax burada göstərilən mənzərə həyatda öz əksini tapacaq. Çünki bu günə qədər bütün təşəbbüslərimiz, bütün planlarımız həyatda öz əksini tapıb. Elə bir təşəbbüs olmayıb ki, o, reallığa çevrilməsin. Ən çətin layihələr, transmilli layihələr, çox çətin geosiyasi vəziyyətdə həyata keçirdiyimiz layihələr uğurla başa çatıb”.

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

# Azərbaycanın iqtisadiyyat naziri AYİB-nin 30-cu illik toplantısında çıxış edib

Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) üzv ölkələrin nümayəndələrinin, həmçinin beynəlxalq təşkilatların təmsilçilərinin iştirakı ilə videokonfrans formatında Bankın Müdirlər Şurasının 30-cu illik toplantısı keçirilib.

Müdirlər Şurasının plenar sessiyasında AYİB-ə üzv ölkələrin nümayəndələrinin çıxışları dinlənilib.

Tədbirdə çıxış edən AYİB-də Azərbaycandan müdir, iqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycanın Bankla əlaqələrin inkişafına önəm verdiyini, AYİB-nin hər zaman etibarlı tərəfdaş olduğunu vurğulayıb, ölkəmizin iqtisadi inkişafına uzunmüddətli və davamlı dəstəyinə görə təşəkkürünü ifadə edib.

İqtisadiyyat naziri koronavirus pandemiyasının Azərbaycan iqtisadiyyatına təsirini azaltmaq məqsədilə həyata keçirilən genişmiqyaslı dəstək tədbirləri barədə məlumat verib. Qeyd olunub ki, 2021-ci ilin yanvar-may aylarına ÜDM 0,8%, qeyri-neft qaz sektorunda əlavə dəyər 4,5% artıb.

2030-cu ilədək Azərbaycanın sosial-iqtisadi inkişaf prioritetlərini diqqətə çatdıran iqtisadiyyat naziri Mikayıl Cabbarov bildirib ki, AYİB-nin “Strateji və Kapital Çərçivəsi 2021-2025” sənədində əks olunmuş məqsədlər Azərbaycan iqtisadiyyatı qarşısında müəyyənləşdirilmiş hədəflərlə uyğunluq təşkil edir. Bu, Azərbaycan və AYİB arasında yeni əməkdaşlıq istiqamətləri üçün geniş potensial yaradır.

Plenar sessiyada işğaldan azad edilmiş torpaqlarımızın bərpası və yenidənqurulmasında, bu ərazilərə əhalimizin böyük qayıdışının təmin edilməsində, nəqliyyat-tranzit, logistika, “yaşıl iqtisadiyyat” və bərpaolunan enerji sahələrində Azərbaycanla AYİB-in əməkdaşlıq imkanları diqqətə çatdırılıb.

Toplantıda AYİB-in strateji istiqamətləri ilə bağlı fikir mübadiləsi aparılıb, maliyyə hesabatları dinlənilib, Bankın Müdirlər Şurasının növbəti il üzrə institusional tərkibi müəyyənləşdirilib.

# Postmüharibə dövründə 929 qaziyə 6200-dək reabilitasiya vasitəsi verilib

**Postmüharibə dövründə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən sosial dəstək tədbirləri çərçivəsində 929 müharibə əlilinə 6200-dək reabilitasiya vasitəsi verilib.**

Həmçinin Vətən müharibəsində yaralanaraq aşağı ətrafları amputasiya olunmuş qazilərimizdən 82 hərbçi yüksək texnologiyalı 83 protezlə təmin olunub. Yuxarı ətrafı amputasiya olunmuş qazilərimizin də yüksək texnologiyalı protezlərlə təminatı üçün işlərə başlanıb.

Bu ilin mart ayından əlilliyi olan şəxslərin mühərrikli təkərli oturacaqla təminatına başlanıb. Əlilliyi olan şəxslərə 500-ə yaxın mühərrikli təkərli oturacaq verilib ki, onlardan bir hissəsi də müharibə iştirakçılarıdır.

Postmüharibə dövründə nazirliyin reabilitasiya müəssisələrində 1300-dək qazi və şəhid ailəsi üzvü sosial-psixoloji və reabilitasiya xidmətləri ilə əhatə olunub. Onlar klinik və sosial psixoloqlar tərəfindən əyani və online, qrup və fərdi şəkildə psixoloji seanslara cəlb ediliblər.

Hazırda da həmin xidmətlərin göstərilməsi prosesi davam edir.

# Astarada taxıl biçini yekunlaşmaq üzrədir



**Bu il Astara rayonunda 142 hektar sahədə taxıl əkilib. Bunun 119 hektarını buğda, 23 hektarını isə arpa sahələri təşkil edir. Rayonda indiyədək 124,8 hektar sahənin taxılı biçilib.**

Bu barədə AZƏRTAC-a Astara Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən məlumat verilib.

Bildirilib ki, biçilən taxıl zəmilərinin 101,8 hektarını buğda, 23 hektarını isə arpa sahələri təşkil edir.

Buğda sahələrinin hər hektarından götürülən məhsuldarlıq 25,3, arpa sahələrindən götürülən məhsuldarlıq isə 20,1 sentner təşkil edib.

Taxıl sahələrindən indiyədək 258,4 ton buğda, 46,4 ton arpa biçilib. Rayonda taxıl yığımı kampaniyasının iyulun birinci ongünlüyündə başa çatdırılması nəzərdə tutulub.

# SOCAR 2020-ci il üzrə maliyyə hesabatını açıqlayıb

**Şirkət pandemiya dövründə həyata keçirdiyi optimallaşdırma tədbirləri nəticəsində gözlənilən zərərini azaltmağa nail olub.**

Dünya neft sənayesi tarixinin ən təlatümlü dövrü kimi yaddaşlarda qalan 2020-ci ildə SOCAR neft və qaz yataqlarının işlənməsi, karbohidrogenlərin nəqli və satışı seqmentlərində əldə etdiyi müsbət nəticələr hesabına üzləşə biləcəyi xalis zərəri azaltmağa nail olub. Hesabat ilində şirkətin ümumi dövriyyəsi 49,6 milyard manat təşkil edib. Dövriyyənin azalmasına dünya bazarında neft və təbii qazın qiymətlərinin kəskin şəkildə aşağı düşməsi, həmçinin neft və neft-kimya məhsullarının gəlir marjalarının əhəmiyyətli dərəcədə azalması təsir göstərib.

# “Karvan-L” EKO sənaye parkı fəaliyyətini bərpa edir

## Parkın ərazisindəki müəssisələrdə istehsal olunan məhsullar xarici ölkələrə də göndərilir

**Bir ilə yaxın idi ki, COVID-19 səbəbindən digər müəssisələr kimi, Ağstafadakı “Karvan-L” EKO-da da işin ahəngi pozulmuş, istehsal sahələrində durğunluq yaranmışdı. Lakin pandemiya qadağalarının bir qədər yumşalması bu müəssisənin də fəaliyyətinin yenidən canlanmasına səbəb olmuşdur. Artıq sənaye parkında işlər öz məcrasına düşmüşdür.**



Oncə qeyd edək ki, 2016-cı ilin oktyabrında dövlət başçısı Ağstafa rayonuna növbəti səfəri çərçivəsində sənaye parkı ilə tanış olarkən burada görülən işləri yüksək qiymətləndirmişdir. Bundan sonra parkda inşa olunmuş keramika dam örtüklərinin istehsalı zavodu qısa vaxt ərzində fəaliyyətini genişləndirmişdir. İstehsal gücü sutkada 500 kvadratmetr olan zavodun məhsulları əsasən xarici bazarlara ixrac edilmişdir. Müəssisə tam olaraq fəaliyyətə düşdükdən sonra isə burada 150 nəfər daimi işlə təmin olunmuşdur. Sənaye parkında inşa olunan ikimərtəbəli satış mərkəzinin inşası da tamamlanmışdır. Ardınca isə parkda polietilen örtüklərin, xüsusi dəmir konstruksiyaların, dəmir dam örtüklərinin, şüşə və şüşə konstruksiyaların, plastik qapı-pəncərə və plastik konstruksiyaların, yerli xammaldan bəzək və mozaika daşlarının istehsalı müəssisələri, eləcə də plastik kütlələrin təkrar emalı, üzvi turşuların istehsalı qurğusu, günəş enerjisi ilə dolan batareyaların istehsalı sahəsi və bioloji-orqanik kənd təsərrüfatı məhsulları yetişdirilən istixana kompleksi fəaliyyətə başlamışdır.

Pandemiya ilə əlaqədar hazırda əsas diqqət istixanaya yönəldilmişdir. Əvvəlki illərdə olduğu kimi, 2 hektar sahədə qurulmuş müasir istixanada bu il də bol məhsul yetişdirilmişdir. Parkın əməkdaşı Nəsimi Nəzərov deyir ki, nə tozlanmada, nə də xəstəliklərə qarşı mübarizədə gübrə və dərmanlardan istifadə olunur: “İstixanada bitkilər arasında tozlanma ancaq arılar vasitəsilə aparılır. Bunun üçün istixananın bütün bölmələrində arılar üçün xüsusi yerlər düzəldilmişdir. Bundan başqa, istixanada çoxlu sayda bildirçin də saxlanılır. Onlar burada olan həşaratları məhv etmək üçündür. Xəstəlik vurmuş yarpaqlar isə işçilər tərəfindən qoparılaraq istixanadan çıxarılır”.

Söhbət zamanı onu da öyrəndik ki, müəssisə pomidoru əsasən Rusiya və Gürcüstana ixrac edir. Bağlanmış müqaviləyə əsasən, Gürcüstana həftədə 15 ton məhsul göndərilir. Rusiya bazarlarına da hər gün xüsusi çeşidləmə qablarnda xeyli pomidor yola salınır.

“Karvan-L” EKO sənaye parkının 6 hektar alma, 12 hektar ərik, badam, fındıq, alça və s. meyvə bağı da var. Hazırda həmin bağlardakı meyvələr yığılır. Yüksək standartlarda qablaşdırılan həmin meyvələr də xarici ölkələrə ixrac edilir.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

# “Cənub qaz dəhlizi” möhkəm təmələ əsaslanır

## Bakı-Tbilisi-Ərzurum kəmərinin istifadəyə verilməsindən 14 il keçir

*Əvvəli 1-ci səh.*



Azərbaycanın növbəti böyük uğurlarından biri - cəmi 4 ilə yaxın bir vaxt ərzində ərsəyə gələn “Cənub qaz dəhlizi”nin işə düşməsi BTC və BTƏ kimi qlobal neft-qaz ixracı layihələrinin təcrübəsinə əsaslanır. Belə ki, Azərbaycan üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərini də təxminən 4 ilə çəkmişdir. Sonra bu kəmərlə yanaşı, “Şahdəniz-1” qazını ölkəmizin 13 rayonundan keçməklə Gürcüstana və Türkiyə sərhədinə çatdıran CQBK-nı inşa etmiş, BTƏ ilə Azərbaycan qazının dünyaya yolunu bir qədər də uzatmışdır. Əslində, Bakı-Tbilisi-Ərzurum kəməri “Cənub qaz dəhlizi”nin bünövrəsi, başlanğıcı rolunu oynamışdır.

Prezident İlham Əliyev bunu öz çıxışlarında dəfələrlə vurğulamışdır. 2014-cü il sentyabrın 20-də “Cənub qaz dəhlizi”nin təməlqoyma mərasimindəki çıxışında dövlətimizin başçısı demişdir: “2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi də tarixi hadisə idi. Çünki o hadisədən sonra Azərbaycan dünyada artıq özünü qaz ölkəsi kimi göstərməyə başlamışdır. Bu kəmərin yeni xəttinin tikintisi əslində bu gün başlayır. Azərbaycan artıq “Cənub qaz dəhlizi”nin birinci hissəsini 2007-ci ildə istifadəyə vermişdir”.

2018-ci il mayın 29-da “Cənub qaz dəhlizi”nin açılış mərasimində Prezident bu fikri yenidən vurğulamışdır: “2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verildi. Bu da çox önəmli layihədir. Bu layihə olmadan “Şahdəniz” yatağının işlənməsi mümkün deyildi. Beləliklə, ilk dəfə olaraq 2007-ci ildə Azərbaycan qazı Gürcüstana və Türkiyəyə nəql edilməyə başlamışdır... Doğrudan da, bunlar tarixi nailiyyətlərdir. “Şahdəniz” yatağının gələcək işlənilməsi ilə bağlı addımlar atılmağa başlanıldı. Əlbəttə, biz hamımız yaxşı bilirdik ki, böyük həcmdə Azərbaycan qazını dünya bazarlarına çıxarmaq üçün qaz kəməri lazımdır. Beləliklə, “Cənub qaz dəhlizi”nin yaradılması ilə bağlı praktiki işlərə start verildi. Çox ciddi işlər, danışıqlar aparıldı”.

İndi bu dəhliz artıq gerçəkliyə çevrilib. “Şahdəniz” yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində əlavə hasilat həcmlərini qəbul etmək, ildə Türkiyəyə 6 milyard və Avropaya 10 milyard kubmetr mavi yanacaq ötürmək məqsədilə CQBK sisteminin genişləndirilməsi həyata keçirilib. Hacıqabul rayonunun Muğan qəsəbəsi yaxınlığından başlayaraq mövcud kəmərlə yanaşı, yeni xətt tikilib. Buradan Gürcüstan sərhədinədək çatan yeni kəmərin uzunluğu 387 kilometrdir. Onun başlanğıcında 1 ərsinləmə, marşrutu boyunca isə 5 siyirtmə stansiyası mövcuddur. CQBK-nın Gürcüstandakı genişləndirmə işlərinə isə bu ölkə ilə Türkiyənin sərhədində yeni kəmərin qısa hissəsi, həmçinin 1 ərsinləmə, 2 kompressor stansiyası, təzyiqi azaldan və ölçən stansiyaların tikintisi daxil idi. Bununla da genişləndirilmiş CQBK “Cənub qaz dəhlizi”nin güclü bir qoluna çevrilib.

CQBK “Cənub qaz dəhlizi”ni təşkil edən üç kəmərin birincisidir. Boru kəmərinin genişləndirilmiş hissəsi 2018-ci ilin iyun ayından Türkiyəyə kommersiya qaz həcmlərinin nəqlinə başlayıb.

CQBK mavi yanacağın Avropaya ixrac edilməsinə də imkan yaradıb. Belə ki, “Şahdəniz” yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan qaz TANAP-a (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-a (Trans-Adriatik Qaz Boru Kəməri) məhz CQBK vasitəsilə qovuşur.

Bu gün istər Bakı-Tbilisi-Ərzurum kəməri, istərsə də onun ayrılmaz hissəsi olan CQBK, eləcə də “Cənub qaz dəhlizi” - genişləndirilmiş CQBK, TANAP və TAP ahəngdar və təhlükəsiz şəkildə fəaliyyət göstərirlər. Başqa sözlə, Azərbaycan qazının ixracı uğurla davam edir. Energetika Nazirliyinin açıqladığı rəqəmlər də bunu təsdiqləyir: cari ilin yanvar-may aylarında Türkiyəyə təqribən 4,2 milyard kubmetr, Avropaya təxminən 2,1 milyard kubmetr, Gürcüstana isə 1,1 milyard kubmetr qaz ixrac edilib. Bu dövrdə BTC boru kəməri sisteminə 43,2 milyon kubmetr qaz verilib. Ayrılıqda Bakı-Tbilisi-Ərzurum kəmərinə gəldikdə isə Türkiyənin ölkəmizdən idxal etdiyi mavi yanacağın yarıya qədərini bu boru xətti daşıyır.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

# Qələm peşəkarın əlində olanda...

**Sabir Əliyevin imzası media nümayəndələrinə yaxşı tanışdır. Səbəbi isə əsl jurnalist kimi həmişə vətəndaş mövqeyinin və haqqın, ədalətin müdafiəsində durması, yazılarındakı obyektivlikdir.**
**Yadımdadır, ötən əsrin 80-ci illərinin sonunda respublikanı başına götürən hərc-mərclik Xanlar (indiki Göygöl) rayonunda da özünü büruzə verirdi. Bundan narazı olan ictimaiyyətin haqq səsinə səsini qatan jurnalist Sabir Əliyev redaktoru olduğu "Kommumist əməyi" qəzetində "Bağlı qapılar arxasında..." tənqidi yazı ilə çıxış edir, rayonun bəzi idarə və müəssisələrində rüşvətxorluq və korrupsiya hallarının mövcudluğunu, bu yöndə vətəndaşların incidilməsinə, süründürməçiliyə son qoyulmasını diqqətə çatdırır.**



Məqalə nəinki Xanlar rayonunda, ümumiyyətlə, qərb bölgəsində əks-səda yaradır. Camaatı narahat edən o idi ki, material qəzetdə çıxan gündən rayon partiya komitəsinin birinci katibi yaxın ətrafına qəti şəkildə tapşırmışdı: "Məqalənin müəllifi - rayon qəzetinin redaktoru Sabir Əliyev hansı yolla olursa-olsun, vəzifəsindən getməli və rayondan çıxarılmalıdır". Birinci katibin pıçıltı ilə yaxınlarına dediyi bu sözlər Gəncəbasarda mötəbər məclislərdən tutmuş bazar və çayxanaларadək müzakirə mövzusuna çevrildi. Hamıya elə gəlirdi ki, bu gün-sabah redaktor "gedəcək", hətta yerinə namizəd də tapıldığı deyilirdi.

Birinci katibin tapşırığına əsasən, hər həftə redaksiyaya yoxlama göndərilməsi məsələnin keçilməz və ciddiliyindən xəbər verirdi. Amma rayon qəzetində nə var idi ki, təftişçilər ondan yapışsın. Odur ki, təftişlərlə heç nəyə nail ola bilmədiyini görən katib bu dəfə hədə-qorxu yolu seçdi: "Ona deyin, öz xoşu ilə ərizəsini yazıb, işdən getsin, yoxsa..." "Yazdıqlarımda haqlıyam, bu yolda sonadək getməyə hazıram", - deyən Sabir Əliyevin iradəsini sındıra bilməyən birinci katib məcbur olub məqalədəki faktları yoxlatmaq üçün Mərkəzi Komitədən komissiya tələb etdi.

Nə isə uzatmayaq. Həmin qarşıdurmanın nəticəsi bu oldu ki, Mərkəzi Komitənin büro iclasında Xanlar rayonunun birinci katibi və onunla bərabər bir neçə məsul işçi vəzifəsindən azad olundu.

Sabir Əliyevin 50 illik jurnalistlik fəaliyyəti dövründə neçə-neçə belə hadisə və faktdan söhbət açmaq olar. Bir fikri xüsusi vurğulamaq yerinə düşər ki, Sabir Əliyev harada, hansı vəzifədə işləyibsə, jurnalist adını, təmsil etdiyi qəzetin və kollektivin nüfuzunu ləyaqətlə qorumuşdur.

Sabir Əliyev 70 il bundan öncə - 1951-ci il iyulun 3-də Gəncədə dünyaya göz açıb. Orta məktəb illərindən çox sevdiyi müxbirliyə meyil edib. ADU-nun (indiki BDU) Jurnalistika fakültəsini bitirib. İlk iş yeri Gəncə şəhər mətbəəsi və "Kirovabad kommunisti" (indiki "Gəncənin səsi") qəzeti olub. Burada ədəbi işçidən şöbə müdiri vəzifəsinədək yüksəlib. Daha sonra 10 ildən artıq Xanlar rayon qəzetinin redaktoru, Azərbaycan Dövlət Teleqraf Agentliyində (AZƏRTAC) bölgə müxbiri olub. Beş ildən artıqdır ki, "Azərbaycan" qəzetinin bölgə müxbiridir.

Jurnalist həmkarımızın əməyi ictimai rəydə, media aləmində və dövlət tərəfindən həmişə yüksək dəyərləndirilib. Sabir Əliyev ötən müddətdə respublika üzrə bir çox ədəbi müsabiqələrin qalibi olub. Dəfələrlə rayon sovetinin deputatı seçilib, ictimai-siyasi işlərdə fəallığı ilə diqqət çəkib. 1987-ci ildə Azərbaycan Jurnalistlər Birliyinin "Qızıl qələm" mükafatına, bundan 3 il sonra Azərbaycan mətbuatında səmərəli fəaliyyətinə görə Əməkdar jurnalist fəxri adına, 2010-cu ildə isə "Tərəqqi" medalına layiq görülüb.

Bu gün də sevdiyi peşəsindən ayrılmayan həmkarımıza yeni yaradıcılıq uğurları və ən azından COVID-19-dan kənar olmağı arzulayırıq.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# ADAU-da "Şuşa Bəyannaməsi zəfər tariximizin siyasi zirvəsidir" adlı konfrans keçirilmişdir

**Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) "Azərbaycan - Türkiyə dostluğu: Şuşa Bəyannaməsi zəfər tariximizin siyasi zirvəsidir" adlı onlayn şəkildə konfrans keçirilmişdir.**



Konfransı giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov qeyd edib ki, tarixən dostluq, qardaşlıq münasibətləri ilə dünya ölkələri üçün nümunə olan Azərbaycan-Türkiyə münasibətləri bu gün də öz ənənəsinə sadiq qalır: "Müstəsna siyasi və tarixi əhəmiyyətə malik Şuşa Bəyannaməsi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları ilə xarakterizə olunan Azərbaycan-Türkiyə münasibətlərinin keyfiyyətcə yeni bir mərhələyə qədəm qoymuşdur".

Türkiyənin Gəncədəki Baş konsulu Zəki Öztürk çıxış edərək Azərbaycan və Türkiyə arasında olan dostluq, qardaşlıq münasibətlərindən söz açaraq qeyd etmişdir ki, Azərbaycan və Türkiyə arasında əlaqələrin yüksək səviyyəsi ümumilikdə regionun tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir. Diplomat Azərbaycanın tək olmadığını, Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu diqqətə çatdırmışdır.

Sonra çıxışlar olmuşdur. Bildirilmişdir ki, bu tarixi sənəd müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutan, milli maraq və mənafelərini müdafiə və təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən hər iki ölkə tərəfindən müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyənləşdirmək baxımından mühüm əhəmiyyətə malikdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Elm və istehsalat bir araya gəlir

## SDU ilə Sumqayıt Texnologiyalar Parkı arasında memorandum imzalanıb

Sumqayıt Dövlət Universitetində (SDU) Sumqayıt Texnologiyalar Parkının (STP) rəhbərliyi ilə görüş keçirilib. Görüşdə STP MMC-nin baş direktoru Ruslan Ağabəyli rəhbərlik etdiyi sənaye parkının fəaliyyətindən danışıb, SDU və STP arasında əməkdaşlığın gələcək perspektivlərini, müəssisələr arasında əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb.



Bildirilib ki, 2009-cu il dekabr ayının 22-də Prezident İlham Əliyevin iştirakı ilə istismara verilən STP müxtəlif istehsalat sahələri üzrə ixtisaslaşmış nəhəng zavodlar kompleksidir. Texnopark daxili bazarın tələbatını tam ödəməklə bərabər, həm də xarici bazara məhsullar ixrac etmək qabiliyyətinə malikdir. STP-nin bütün zavodları Avropa istehsalı olan laboratoriyalarla təmin olunub və AZS ISO/IEC 17025-2009 standardlarına uyğun akkreditə edilib. Burada istehsal olunan bütün məhsulların müvafiq sertifikatları var. Bu gün STP-də beynəlxalq standardlar da tədbiq olunur.

İştirakçıların nəzərinə çatdırılıb ki, Sumqayıt Dövlət Universiteti ölkənin və regionun nüfuzlu elmi-tədris mərkəzinə çevrilib. Regionun elmi-mədəni elitasının formalaşmasını təmin edən təhsil ocağında kadr potensialının inkişafı üçün müxtəlif layihələr gerçəkləşdirilir, mühüm uğurlara imza atılır. Universitetin rektoru professor Elxan Hüseynov rəhbərlik etdiyi universitetin fəaliyyəti, beynəlxalq əlaqələri barədə məlumat verərək bildirib ki, SDU bir çox müəssisələrlə əməkdaşlıq müqaviləsi imzalayıb. Nəticədə tələbələr ixtisaslarına uyğun təcrübədə olurlar ki, bu da günün tələbləri səviyyəsində kadr potensialının formalaşmasına təkan verir.

Rektor onu da vurğulayıb ki, SDU-nun tarixində ilk dəfə olaraq 2017-ci ildən başlayaraq elmlər doktoru proqramı üzrə mütəxəssis hazırlığı həyata keçirilir. Hazırda universitetdə 6 ixtisas üzrə 3 dissertasiya şurası da fəaliyyət göstərir. SDU Rusiya-Azərbaycan Universitetləri assosiasiyasının üzvü və assosiasiyanın Azərbaycan tərəfdən həmsədridir. Elm və təhsil sahəsində universitetlərin əməkdaşlığı həm də ölkələrimizin intellektual potensialının artmasına kömək edir. Elmin təhsilə, Avropa dəyərlərinə inteqrasiyası istiqamətində imza atdığı uğurlarla MDB məkanında, Türkiyədə, bir sıra Avropa ölkələrində fəaliyyət göstərən universitet bu gün təkcə maddi-texniki bazası, İKT-nin son naliyyətləri ilə təchiz olunmuş auditoriya, laboratoriyaları ilə deyil, nüfuzlu alimləri, tanınmış müəllimləri, mükəmməl biliklərə malik kadr potensialı, professor-müəllim heyəti ilə şöhrət qazanıb.

Görüşün sonunda tərəflər arasında əməkdaşlıq memorandumu imzalanıb.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Şahlar Əsgərov - 80

# Ömrün müdriklik zirvəsinə ucalan alim

**Əsrarəngiz gözəlliklər diyarı olan Kəlbəcərdə elm-sənət xadimləri az yetişməyib. Ulu Öndər Heydər Əliyev 1996-cı ildə kəlbəcərli ziyalılarla görüşündə bir daha bunu xatırladaraq demişdir: "...Kəlbəcərdə yaşayan insanlar da o gözəl təbiətin, məğrur qayaların, dağların təsiri altında daim cəsur olublar. Eyni zamanda zəkalı olublar, elmə, biliyə, mədəniyyətə həmişə çox böyük maraq göstəriblər. Ona görə də Azərbaycanın ucqar və dağlıq rayonu olan Kəlbəcərdə, eyni zamanda, həmişə yüksək mədəniyyət və yüksək mənəviyyat olmuşdur. Təbiidir ki, Kəlbəcər rayonundan çıxmış adamlar - kəlbəcərlilər Azərbaycanın hər yerində, xüsusən, Bakıda ölkəmizin ictimai-siyasi, mədəni, elmi həyatında özlərinə məxsus görkəmli yer tutmuşlar və ölkəmizin inkişafında öz xidmətlərini göstərmişlər..."**



Bu torpağın yetişdirdiyi elm adamları var ki, onlar nəinki Azəraycanda, bütün dünyada yaxşı tanınırlar. Elmə verdikləri töhfələrlə dünyada şöhrət qazanmış, əslən Kəlbəcərdən olan görkəmli ziyalı, Əməkdar elm xadimi, professor, tanınmış təhsil eksperti Şahlar Əsgərov da belələrindən biridir. O, indi ömrünün 80-ci ilini yaşayır.

Bu yubileyə ən böyük töhfə isə pofessor üçün doğulduğu Kəlbəcərin 28 illik işğalından sonra azadlığına qovuşmasıdır.

1990-cı ildə yaratdığı "Amorf təbəqələri" elmi tədqiqat laboratoriyasının rəhbəri olan elm xadimi əvvəllər bu ali təhsil ocağında müəllim, dosent, dekan müavini, beynəlxalq əlaqələr üzrə prorektor vəzifələrində çalışıb. Təhsilin fəlsəfəsi, daha doğrusu, sosial fəlsəfə və pedaqogika üzrə apardığı tədqiqatlar Şahlar Əsgərovun növbəti uğurlu fəaliyyətidir. Tanınmış alimin fəlsəfi mövzulara həsr olunmuş "Keçid dövrünə fəlsəfi baxış" (1998), "Milli birlik probleminə fəlsəfi baxış" (2001), "Təhsilimiz dünən, bu gün və sabah" (2003), "Düşüncə tərzi" (2008) və digər kitabları yüksək ideyaməzmunu, analitik səviyyəsi, aktuallığı, problemlərə yanaşma üslubu, mənəviəxlaqi dəyərləri önə çəkməsi ilə diqqəti cəlb edir.

### "Hikmət məclisi" - müdriklik mücəssəməsi

200-dən çox elmi, 700-dən artıq publisistik məqalə, 15-dək kitab, 3 monoqrafiya professorun Azərbaycan elminə verdiyi töhfələrdəndir. Alimin nümizmatika, kriminalistika və tətbiqi incəsənət sahələrində də ixtira və patentləri az deyil.

Şahlar Əsgərov 1995-2000 və 2000-2005-ci illərdə Milli Məclisin deputatı olub, 2000-2005-ci illərdə bu ali qanunvericilik orqanında Elm və təhsil məsələləri daimi komissiyasının sədri vəzifəsini layiqincə daşıyıb.

Professor Şahlar Əsgərovun elmdə və təhsildə, eləcə də ictimai fəaliyyətdə göstərdiyi xidmətləri dövlət tərəfindən qiymətləndirilib: 1999-cu ildı "Şöhrət" ordeni ilə təltif edilib, 2001-ci ildə isə Əməkdar elm xadimi fəxri adına layiq görülüb.

Bir sira beynəlxalq akademiyaların (RAE, ASPN) üzvü olan professor hazırda Azərbaycan Respublikası Təhsil Nazirliyi yanında İctimai Şuranın sədri vəzifəsini daşıyır. Səmərəli elmi fəaliyyəti ilə diqqəti cəlb edən alimin "Düzgün qərarın hikməti" və "Yonulmuş daş yolda qalmaz" kitabları da yeni çapdan buraxılıb.

### Mürəkkəb nəzəriyyə və novatorluq

Professor Şahlar Əsgərov həyatda məqsədlərinə halal zəhmətlə, işgüzarlıqla çatıb. Yorulmaz tədqiqatları ilə elmdə layiq olduğu zirvəyə yetişib. Alimin bu gün də - ömrünün səksəninci ilində gənc tədqiqatçı şövqü ilə yaratmaq, virtual məkanın hüdudsuz imkanlarından bəhrələnmək səyləri onu tanıyanlarda heyranlıq yaradır.

O, Kəlbəcərdə 1941-ci ilin iyun ayında dünyaya göz açıb. Çox erkən yaşlarından mehrini məhz təbiət elmlərinə salıb. Orta məktəbi əla qiymətlərlə bitirib. 1958-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Fizika fakültəsinə qəbul olub. 1964-1967-ci illərdə təhsil aldığı universitetin əyani aspirantı kimi Leninqrad (indiki Sankt-Peterburq) Sabit Cərəyan İnstitutunda elmi işi üzərində çalışıb.

Aspiranturanı bitirdikdən sonra ömür yolunu doğma universitetə bağlayan Şahlar Əsgərov əmək fəaliyyətinə burada müəllimliklə başlayıb. 1970-ci ildə dissertasiya işini müvəffəqiyyətlə müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsini alıb. Tədqiqatlarını uğurla davam etdirən Ş.Əsgərov 1992-ci ildə Bakı Dövlət Universitetində "Toxunma sərhədinin qeyri-bircinslilik dərəcəsinin metal-vakuum və metal-yarımkeçirici strukturlarının elektrofiziki xassələrinə təsiri" mövzusunda doktorluq dissertasiyasını müdafiə edib.

### Dünya alimlərinin istinad yeri...

1993-cü ildə BDU-nun professoru seçilən Şahlar Əsgərov elmi fəaliyyəti dövründə bir sıra böyük uğur və nailiyyətlərə imza atıb.

Beynəlxalq aləmə elm yolu ilə çıxan Şahlar Əsgərov Danimarka Texniki Universitetində birillik ezamiyyətdə olub. Oradan qayıtdıqdan sonra respublikada ilk dəfə metal-yarımkeçirici kontaktı mövzusunun tədqiqinə başlayıb.

Professor bildirir ki, ion mühərrikləri ötən əsrin yetmişinci illərindən alimlərin diqqətini daha çox cəlb edib. 2000-ci ildən bəri isə artıq ion mühərrikləri vasitəsilə kosmosa aparatlar çıxarılıb. Sevindirici haldır ki, belə mühərriklərin hazırlanmasında professor Şahlar Əsgərovun elmi nəticələrindən geniş istifadə olunur. Tozlanma ilə bağlı professorun əldə etdiyi nəticələrdən, dövrün bir nömrəli problemi sayılan idarə oluna bilən termonüvə qurğularının "plazma-divar" kimi tanınan problemin həllində də geniş istifadə edilir.

Şahlar müəllim L.Sena (Leninqrad), L.Praneviçyus (Kaunas), V.Yurasova (Moskva), V.Strixa (Kiyev), P.Prehn (Kopenhagen), M.Lukkala (Helsinki), L.Şelyakin (Moskva), A.Şkavro (Kiyev), A.Arş (Ryazan) və digər dünya alimləri ilə əməkdaşlıq edərək, elmdə maraqla qarşılanan birgə məqalələrin müəllifi kimi də tanınır.

Şahlar müəllim universitetdə radiofizika, emissiya elektronikası, mikroelektronika və digər fənləri tədris etməklə yanaşı, bu istiqamətlərdə sanballı elmi araşdırmalar da aparmaqdan yorulmur. Alimin elmi əsərlərinin dəyəri isə ilk növbədə, praktik tətbiq imkanlarının genişliyi ilə ölçülür.

Bir çox xarici ölkələrdə alimlərin elmi tədqiqatlarının dəyəri, ilk növbədə, onlara edilən istinadların sayı əsasında müəyyənləşir. Yəni aktuallığı, elmi siqləti, ideya məzmunu ilə seçilən əsərlərdə irəli sürülən tezis və fikirlər sonradan digər nüfuzlu alimlər üçün də maraqlı istinad mənbəyinə, diskussiya predmetinə çevrilir.

Gizli deyil ki, Yusif Məmmədəliyev, Lütfi-Zadə, Azad Mirzəcanzadə, Bəhram Əsgərov... kimi korifey elm xadimlərindən sonra Azərbaycanın dünyaca məşhur alimlərinin sırası seyrəkləşib. Bəlkə də elə buna görədir ki, azərbaycanlı alimlərin tədqiqatlarına istinadlar o qədər çox deyil. Lakin professor Şahlar Əsgərov kimi fədakar alimlərin elmi tədqiqatları bu mənada istisnadır. Professor deyir: "... ABŞ-ın Klivlend şəhərində NATO-nun Levis Araşdırmalar Mərkəzinin mütəxəssisi Maris A.Mantenieksin məruzəsində tədqiqatlarıma geniş yer ayırıb. Tədqiqatçı qeyd edib ki, ağır ionlarla katod tozlanmasının öyrənilməsi hələ ötən əsrin 60-cı illərində Şahlar Əsgərov və L.Sena tərəfindən başlanılıb. Məruzə müəllifi yazır ki, Ş.Əsgərovun və L.Senanın nəticələrinin etibarlılığı bu sahədə mühüm nailiyyətlər əldə etmiş nüfuzlu alimlərin nəticələrini üstələyir. Ağır ionlarla tozlanma məruzəsini davam etdirən mütəxəssis məruzənin bir səhifəsində 9 yerdə (15 sətirlik mətnin isə 5 yerində) elmi araşdırmalarımın nəticələrinə istinad edib..."

### "Düşüncə tərzi" və keçid dövrünün müddəti...

Azərbaycan hazırda inkişafının elə bir mərhələsindədir ki, müstəqillik illərində keçilən yolun ayrı-ayrı parlaq səhifələrinin fəlsəfi rakursda nəzərdən keçirilməsi, eyni zamanda, milli inkişaf strategiyasının elmi-nəzəri kontekstdə əsaslandırılması qarşıda duran vacib məsələlərdəndir. Yüksək vətəndaş və ziyalı təəssübkeşliyi, vətənpərvərliyi ilə bu prosesdə yaxından iştirak edən alimlərdən biri də məhz professor Şahlar Əsgərovdur. Tanınmış alimin fəlsəfi mövzulara həsr olunmuş "Keçid dövrünə fəlsəfi baxış", "Milli birlik probleminə fəlsəfi baxış", "Təhsilimiz dünən, bu gün və sabah", "Düşüncə tərzi" və digər əsərləri özünün yüksək ideya-məzmunu, analitik səviyyəsi, aktuallığı, problemlərə yanaşma üslubu, mənəvi-əxlaqi dəyərləri önə çəkməsi ilə diqqəti cəlb edir.

Bu əsərlərdə kapital münasibətləri fonunda mənəvi-əxlaqi dəyərlərin deqredasiyasına zəmin yaradan neqativ tendensiyalar tərbiyəedici motivlər əsasında göstərilir. Alimin "Düşüncə tərzi" kitabı müasir Azərbaycan cəmiyyətinin həm hazırkı real gerçəkliyinin, həm də düşüncə tərzinin bütün başlıca istiqamətlərdə təhlilinə, burada mövcud olan yararlı-yararsız cəhətlərin aşkara çıxarılmasına həsr olunub.

Elmi, mədəni, intellektual səviyyəsi ilə ictimaiyyətin diqqətini çəkən professor Şahlar Əsgərov, bir sözlə, bütün sahələrdə fəallığı, idarəçilik və təşkilatçılıq fəaliyyəti ilə seçilir. Professorun Azərbaycan elminə verdiyi ən mühüm töhfələrdən biri də onun rəhbərliyi altında 20-dən artıq elmlər namizədi və doktorun hazırlanmasıdır.

Mənəvi dünyasının, daxili aləminin - vicdanının səsi Şahlar Əsgərovu yalnız özü üçün yaşamağa, əhatə olunduğu dövrün, mühitin nöqsanlarına, qüsurlarına göz yummağa, etinasız yanaşmağa imkan verməyib. O, ətrafda baş verən hadisə və proseslərə münasibətdə passiv müşahidəçi mövqeyindən çıxış edərək biganəlik, laqeydlik nümayiş etdirməyib. Məşhur 91-lərin biri kimi dövrünün ictimai-siyasi hadisələrinə laqeyd qalmayıb, fəaliyyətinin bütün mərhələlərində məhz Azərbaycanın gələcəyini düşünüb. Siyasi baxışlarında hər zaman sabit və prinsipial olan Şahlar Əsgərov Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu dönmədən müdafiə edərək, onun rəhbərliyi altında həyata keçirilən dövlət quruculuğu prosesinə layiqli töhfəsini verməyə çalışıb. Ulu Öndərin siyasi fəaliyyətinə YAP-ın fəallarından biri kimi daim dəstək verən, dövlətçilik maraqlarının keşiyində dayanan alim YAP İdarə Heyətinin üzvü kimi də üzərinə düşən vəzifəni həmişə layiqincə yerinə yetirib. Məhz dövlət başçısı professorun dövlətçilik fəaliyyətini yüksək dəyərləndirərək, alimi "Şöhrət" ordeninə layiq görüb.

Alim keşməkeşli olduğu qədər də mənalı, zəngin və şərəfli həyat yolu keçib. Məqsədlərinə doğru pillə-pillə irəliləyən professor Şahlar Əsgərov xalqına fayda vermək əzmi və qətiyyəti ilə ömrünü elmi axtarışlara həsr edib. İnam var ki, görkəmli alim bundan sonra da böyük səylə, qətiyyətlə çalışacaq, Azərbaycan elminin ən son nailiyyətlərini dünya ictimaiyyətinə çatdırmaq prosesində yüksək fəallıq və vətənpərvərlik nümayiş etdirəcək. Axı ona yeni güc, dözüm, səbir, iradə verən doğma yurdu, həsrətini çəkdiyi Qarabağı, o cümlədən Kəlbəcəri düşmən əsarətindən azad edilib. 80 illik bir yolun ətəklərində Qarabağ, onun zirvəsində Kəlbəcərini görən professora cansağlığı diləyir və ömrünün müdrik çağlarında elmin fəlsəfəsini gənc nəslə öyrətməkdə yorulmamağı arzulayırıq.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Paytaxt polisi "Avro-2020"nin dörddəbir final oyununun Bakıda keçirilməsi ilə əlaqədar sürücülərə müraciət edib

**Paytaxt polisi futbol üzrə Avropa çempionatının dörddəbir final mərhələsi çərçivəsində iyulun 3-də Bakıda keçiriləcək Çexiya-Danimarka oyunu ilə əlaqədar sürücülərə müraciət edib.**

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polis polkovniki Vaqif Əsədov AZƏRTAC-a açıqlamasında bildirib ki, futbol üzrə Avropa çempionatının Bakıda keçiriləcək oyunu ilə əlaqədar bəzi küçə və prospektlərdə nəqliyyat vasitələri üçün hərəkət tam məhdudlaşdırılacaq. Bakı Olimpiya Stadionunda keçiriləcək oyunla əlaqədar təhlükəsizlik tədbirləri müəyyən edilib və icra olunacaq. Futbol azarkeşlərinin, paytaxt sakinlərinin, avtomobil sürücülərinin və sahiblərinin nəzərinə çatdırılır ki, Bakı Olimpiya Stadionu və ona bitişik bütün prospektlər, ərazilər polis əməkdaşları tərəfindən tam nəzarətə götürülüb və gücləndirilmiş iş saatı ilə xidmət təşkil edilib. "Qardaş Türkiyədən və digər ölkələrdən gələn çoxsaylı azarkeşlərin, qonaqların, tamaşaçıların rahat, fasiləsiz və təhlükəsiz hərəkətinin təşkili, eləcə də qonaqpərvərliyin mühitinin yaradılması üçün Bakı Şəhər Dövlət Yol Polisi əhaliyə, avtomobil sahiblərinə və sürücülərə təkrarən müraciət edir. Bakı Olimpiya Stadionuna və ona bitişik Böyük Şor bulvarı istiqamətində Ziya Bünyadov prospekti ilə kəsişən 9-cu köndələn və Xəlil Rza Ulutürk küçələrindən, eləcə də Heydər Əliyev prospekti ilə 1 saylı "ASAN xidmət" Mərkəzinin yanından və hava limanından mərkəzə doğru Heydər Əliyev prospektindən Bakı Olimpiya Stadionu ilə əsas giriş qapısı istiqamətində avtomobillərin hərəkətinə tam məhdudiyyət qoyulur.

Həmin istiqamətə futbol üzrə təşkilat komitəsi tərəfindən xüsusi tanınma nişanları ilə təchiz edilmiş nəqliyyat vasitələri göstərilən giriş üzrə hərəkət edə bilərlər. Digər nəqliyyat vasitələri ilə bu istiqamətə doğru hərəkətin mümkünsüzlüyünü nəzərinizə çatdıraraq, ictimai nəqliyyat vasitələri ilə hərəkət etməyi tövsiyə edirik. Məlum olduğu kimi, azarkeşlərin metronun "Qara Qarayev" stansiyası yanından, Səməd Vurğun parkının qarşısından xüsusi ayrılmış ekspress avtobuslarla azarkeşlərin daşınması, piyada isə "Koroğlu" stansiyasından nəzərdə tutulur. Oyunun başlanılması pik saatlara təsadüf etdiyi üçün bu müddətdə süni sıxlığın yaşanma ehtimalını nəzərə alaraq, şəxsi avtomobillərdən istifadə etməməyi və avtobuslarla hərəkət edərkən tibbi qoruyucu vasitələrdən istifadə edilməsi tövsiyə olunur. İnanırıq ki, hər zaman olduğu kimi, bu gün də vətəndaş-polis həmrəyliyi bu oyunun da yüksək səviyyədə keçirilməsinə şərait yaradacaq. Bir daha hər kəsə daha diqqətli, ayıq-sayıq olmağı və informasiya təhlükəsizliyi qaydalarına riayət etməklə nizam intizamlı olmağı tövsiyə edirik", - deyə V.Əsədov bildirib.

# "Azercell"dən 4G MiFi ilə daha sürətli internet bağlantısı

Hədiyyəli MiFi cihazı eyni anda 10-a qədər istifadəçiyə rahatlıqla internet şəbəkəsi paylaya bilir

**Keyfiyyətli, eyni zamanda effektiv internet bağlantısının son dərəcə əhəmiyyətli olduğunu nəzərə alaraq, ölkənin lider mobil operatoru "Azercell Telekom" bu sahədə rahat və əlverişli həlləri təqdim etməkdə davam edir.**




Şirkətin hazırda keçirilən kampaniyası çərçivəsində yeni MiFi M25 cihazı ilə birgə abunəçilər həm də 50GB həcmində internet paketini hədiyyə olaraq əldə edə biləcək. Cəmi 99 AZN dəyərində olan bu təkmilləşdirilmiş cihaz eyni anda 10-a yaxın istifadəçi üçün sürətli internet bağlantısını təmin edir.

Kiçik ölçülü olması bu cihazı daim yanında gəzdirməyə, istədiyin vaxt istifadə etməyə şərait yaradır. Avadanlığın daşınması kimi istifadəsi və quraşdırılması da kifayət qədər rahatdır. İstifadəçilər üçün önəmli cəhətlərdən biri də MiFİ avadanlığının enerjiyə qənaət funksiyasıdır - cəmi bir dəfə tam enerji ilə yüklənməsi cihazın 8 saata qədər uzun müddət davamlı işləməsini təmin edir. İstifadə edilmədikdə cihazı avtomatik yuxu rejiminə quraşdırmaq, bununla da həm internetə, həm də enerjiyə qənaət etmək olar.

Qeyd edək ki, kampaniya çərçivəsində hər bir 4G MiFi cihazla birgə 1 ədəd "Data tarifi"ndə olan Fakturasız xətt nömrəsi təqdim olunur. Abunəçilər cihazı "Azercell" Eksklüziv mağazaları və "Azercell"in rəsmi diler dükanlarından əldə edə bilərlər.

Kampaniya haqqında daha ətraflı məlumat üçün bu linkə keçid almaq tövsiyə edilir:

**https://www.azercell.com/az/personal/campaigns/devices/iot/4g-mi-fi.html**

# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərmətbuatyayımı" ASC | (012) 440-46-94, (012) 441-19-91 |
| "Azərpoçt" ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Kaspi" MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən 08 aprel 2021-ci il tarixdə **www.etender.gov.az** Portalında və "Azərbaycan" qəzetində elan olunmuş "Dəftərxana ləvazimatlarının satın alınması" ilə əlaqədar keçirilmiş açıq tender müsabiqəsində "NUR-E.A." MMC qalib şirkət elan olunmuşdur.

Həmin MMC ilə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 11.06.2021-ci il tarixdə keçirilmiş Bakı Metropoliteninin III yeni ("Bənövşəyi") xəttinə aid "Xocasən" elektrik deposunda inşa edilən Vestibül və Sərnişin platformasının yanğın siqnalizasiya sisteminin quraşdırılması işlərinin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə "Fire Company" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 02.07.2021-ci il tarixdə ƏDV daxil 40771,36 (qırx min yeddi yüz yetmiş bir manat 36 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Komendant Xidməti Avadanlıqların alınması və quraşdırılmasının satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 1 LOT üzrə keçirilir.

Tələb olunan sənədlər:

- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*
- *rekvizitlər, qeydiyyatdan keçdiyi ölkə, nizamnamə (notarial qaydada təsdiqlənməlidir);*
- *son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;*
- *maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *qiymətlər vergi və digər dövlət rüsumları göstərilməklə qeyd edilməlidir.*

Malların alınması və quraşdırılması 2021-ci ilin sonunadək nəzərdə tutulur.

İddiaçılar tenderdə iştirak etmək üçün 50 manat iştirak haqqını **etender.gov.az** Portalında "ASAN ödəniş" sisteminə keçid etməklə ödəməlidirlər.

**Bank rekvizitləri**
**Dövlət Xəzinədarlıq Ağentliyi**
**KOD-210005**
**VÖEN-1401555071**
**M/h-AZ41NABZ01360100000000003944**
**SWİFT BİK -CTREAZ22**
**H/h-AZ67CTRE00000000000002078401**
**VÖEN-1700425571**
**BTK-142330 fond-7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün Əsas şərtlər toplusu, tələb olunan malların siyahısı, keyfiyyət meyarları, çatdırılma şərtləri və müddəti, tələb olunan arayışlar və digər zəruri sənədlər barədə məlumat qanunvericiliyə uyğün olaraq "etender.gov.az" qaydada Portalda dərc ediləcəkdir.

***QEYD:*** *tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

İddiaçılar tenderdə tələb olunan sənədləri **05 avqust 2021-ci il saat 11:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər.

Tenderin qiymət təklifi **13 avqust 2021-ci il saat 11:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər.

Təklif zərfləri **16 avqust 2021-ci il saat 11:00-da** Portal vasitəsilə açılacaqdır.

Əlavə suallar üçün əlaqələndirici şəxs: Mustafayev Rza, telefon: (012) 590-98-83.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi *açıq tender elan edir*

Tender 2 (iki) LOT üzrə keçirilir:

**LOT-1.** Ağsu şəhər 5 nömrəli tam orta məktəbin əsaslı təmiri işlərinin satın alınması.

**LOT-2.** Astara rayonu, Pensər kənd 1 nömrəli tam orta məktəbin əsaslı təmiri işlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, **www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar hər LOT üzrə 150,00 (bir yüz əlli) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *iddiaçının tam adı, hüququ statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəllləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmamasına dair arayış;*
- *son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *son bir ildəki maliyyə vəziyyəti barədə bank tərəfindən təqdim edilmiş arayış;*
- *iddiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd;*
- *iddiaçının analoji işlərdə təcrübəsi, potensial texniki və kadr imkanlarının olmasına dair rəsmi arayış;*
- *iddiaçının satınalma prosedurunun başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd;*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə sənəd;*
- *son bir ildə analoji işlər üzrə yerinə yetirilmiş işlər, bağlanılmış satınalma müqavilələrinin surəti, səlahiyyətli işçilərinin peşəkar fəaliyyəti haqqında təsdiqedici sənədlər təqdim olunmalıdır;*
- *işlərinin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazəyə malik olmalıdır.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilində tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **28 iyul 2021-ci il saat 11:00-a** qədər, tender təklifi ilə bank təminatı sənədlərini isə **05 avqust 2021-ci il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **06 avqust 2021-ci il saat 11:00-da** elektron Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərpoçt" MMC-nin "Azərbaycan" qəzetinin 10 iyun 2021-ci il tarixli 119 (8712) saylı nömrəsində elan edilmiş "Matrix printerlər üçün (ribbon) lent"lərin satın alınmasına dair açıq tender prosedurunda tender təklifi verən malgöndərənlərin sayı qanunvericiliklə müəyyən edilən saydan az olması səbəbilə ləğv edilmişdir.

***Tender komissiyası***

## Sosial Tədqiqatlar Mərkəzi aşağıdakı işlərin və xidmətlərin satın alınması məqsədilə *təkliflər sorğusu elan edir*

İctimai rəy sorğularının keçirilməsi məqsədilə sorğu xidmətinin, onunla əlaqəli və digər planlanmış müxtəlif çaplı işlərin, xidmətlərin satın alınması.

Maraqlanan təşkilatlar **(012) 510-70-78** nömrəli telefonla əlaqə saxlaya bilərlər.

İddiaçıların təklifləri "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci bəndinə uyğun gəlməlidir. Zərurət yaranarsa, ixtisas göstəricilərinə dair sənədlər tələb edilə bilər.

Təkliflər sorğusu **12.07.2021-ci il saat 15:00-da keçiriləcəkdir.**

İştirak etmək üçün sənədlər **12.07.2021-ci il saat 12:00-dək qəbul olunur.**

**Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Ü.Hacıbəyli, 62.**

***Tender komissiyası***

## BİLDİRİŞ

Azərbaycan İnvestisiya Holdinqi üçün kompüterlərin və printerlərin satın alınması üzrə 06 may 2021-ci il tarixdə elan edilmiş təkliflər sorğusu prosedurunun qalibi "ISOFT" MMC (Bakı şəhəri, AZ1021, Səbail rayonu, Badamdar ŞTQ,M.Müşviq, ev 4B, mənzil 114) ilə 29 iyun 2021-ci il tarixdə 67012.20 (altmış yeddi min on iki manat 20 qəpik) manat məbləğində satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyevə əzizi

**HACI QULU TARQULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektorluğu Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin müdir müavini, Bakı Slavyan Universitetinin rektoru vəzifəsini müvəqqəti icra edən Anar Nağıyevə atası

**RÜSTƏM NAĞIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Bakı Slavyan Universitetinin rektorunun səlahiyyətlərini icra edən Anar Nağıyevə atası

**RÜSTƏM NAĞIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan
AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az



Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 3752
Sifariş 1160
Qiyməti 40 qəpik